QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 231 (5951) **13 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir!




*Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib*

Səh 2

4

**Kiyevdə GUAM-a üzv ölkələrin hökumət başçılarının plenar iclası keçirilib**



4

**YAP 126 səlahiyyətli nümayəndənin adını MSK-ya təqdim edib**



5

**Vitali İqnatenko: Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir**



# Müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir!

## *Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib*

***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.***




AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.



Azərbaycanın dövlət himni səsləndi. Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak ediblər.

***

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq heç də hər kəsə nəsib olmur. Xalq yalnız sevdiyi insanları yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

**Ardı Səh. 3**

# Müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir!

## *Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib*

Əvvəli Səh. 2



"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.







Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin mənafeyini praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi. Odur ki, Azərbaycan müstəqil siyasət yürütmə prinsiplərinin bərqərar olduğu güc mərkəzinə çevrilib. Dünya birliyində hörmət və ehtiram ünvanına çevrilən ölkəmiz beynəlxalq aləmdə dostluq, tərəfdaşlıq və qardaşlığın mühüm nümunəsi kimi tanınır və sözün əsl mənasında, tam müstəqil ölkəyə çevrilib. Dahilik intellektin fövqəladə böyüklüyüdür. Heydər Əliyev isə özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr etdi. Ona görə də müasir müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir.

# Birinci vitse-prezident Mehriban Əliyeva: Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm



***Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar "Instagram" səhifəsində paylaşım edib.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: "Bu gün - 12 dekabr Azərbaycanın və Azərbaycan xalqının həyatında və taleyində silinməz iz qoymuş dahi şəxsiyyət Heydər Əliyevin anım günüdür. Ümummilli lider Heydər Əliyevin unudulmaz xatirəsini ehtiramla yad edirəm. Ölkəmizə sülh və tərəqqi arzulayıram".

# Kiyevdə keçirilən anım mərasimində Ulu Öndərin xidmətlərindən danışılıb

***Ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Kiyevdəki Heydər Əliyev adına parkda Ulu Öndərin abidəsinin önündə anım mərasimi keçirilib. Anım mərasiminin iştirakçıları əvvəlcə Ulu Öndərin abidəsi önünə tər çiçəklər düzərək xatirəsini yad ediblər.***



Tədbirdə iştirak edən Baş Nazirin müavini Əli Əhmədov ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərdən danışıb. Bildirib ki, Ulu Öndərin Azərbaycana rəhbərlik illəri ölkəmizin taleyinin və gələcəyinin təyin olunmasında həmişə həlledici rol oynayıb. Sovetlər dönəmində Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi dövr tariximizə əzəmətli sıçrayış və yeniləşmə illəri kimi daxil olub.

"Heydər Əliyevin misilsiz tarixi missiyası ölkəmizin müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə özünü daha qabarıq şəkildə büruzə verib. Azərbaycan xalqı əvəzsiz xidmətlərinə görə Ümummilli Lideri xilaskar adlandırıb. 1993-cü ildə Ulu Öndərin qayıdışı sayəsində Azərbaycan parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan və digər bəlalardan xilas oldu. Ölkədə sabitlik və əmin-amanlıq təmin



edildi, islahatlar həyata keçirildi, iqtisadi tənəzzül cilovlandı", - deyə Ə.Əhmədov qeyd edib. Baş Nazirin müavini vurğulayıb ki, Ümummilli Liderin bizə qoyub getdiyi güclü Azərbaycan bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu, düşünülmüş siyasəti nəticəsində daha da güclənir, dünyada söz sahibinə çevrilir. Baş Nazirin müavini bildirib ki, bütün dünyada olduğu kimi, Ukraynada da kifayət qədər azərbaycanlı yaşayır: "Siz özünüzü həmişə güvənli hesab edə bilərsiniz, sizin arxanızda güclü Azərbaycan və onun Prezidenti dayanır. Mən inanıram ki, burada çalışan bütün soydaşlarımızın, təhsil alan azərbaycanlıların hər birinin ürəyi Azərbaycanla döyünür".



# Kiyevdə GUAM-a üzv ölkələrin hökumət başçılarının plenar iclası keçirilib

***Dekabrın 12-də Ukraynanın paytaxtı Kiyev şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı Baş Nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. Toplantıda GUAM-a üzv ölkələr arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin inkişafı, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin perspektivləri, quruma üzv ölkələrdə münaqişələrin həlli istiqamətində yeni fəaliyyət proqramının hazırlanması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.***



Azərbaycanın GUAM-a üzv dövlətlərlə hərtərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirdiyini bildirən Baş Nazirin müavini Əli Əhmədov son illər ölkəmizin iştirakı ilə bölgədə həyata keçirilən beynəlxalq infrastruktur layihələrinin səmərəli nəticələrindən bəhs edib. Bildirib ki, GUAM ölkələr arasında iqtisadi, ticari əlaqələrin inkişafı üçün əlverişli platformadır. Azərbaycanın həyata keçirdiyi iri nəqliyyat, enerji layihələri GUAM-a üzv ölkələr arasında iqtisadi, ticari əlaqələrin inkişaf etdirilməsinə əsaslı zəmin yaradır.

Əli Əhmədov 2020-ci ildə Azərbaycanın GUAM-a sədrliyi dövründə əsasən infrastruktur, enerji, ticarət layihələrinin qəbul edilməsi üzərində işlərin davam etdiriləcəyini vurğulayıb. Görüşün iştirakçıları GUAM-a üzv ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı məsələsində həmrəy olduqlarını bildiriblər.

Toplantıda çıxış edən Ukraynanın Baş Naziri Aleksey Qonçaruk, Moldovanın Baş Naziri İon Kiku və Gürcüstanın Baş Naziri Georgi Qaxariya təşkilatın fəaliyyət göstərdiyi illərdə beynəlxalq arenada qazandığı nailiyyətlərdən, qurumun qarşısında duran vəzifələrdən bəhs ediblər. GUAM ölkələri arasında azad iqtisadi zonanın yaradılması, sabit inkişafın təmin edilməsi, nəqliyyat, energetika, turizm, elm və mədəniyyət sahələrində mövcud olan əlaqələrin intensivləşdirilməsi və inteqrasiya proseslərinin gücləndirilməsi məsələlərinin müzakirəsinin vacibliyini vurğulayıblar.

İclasın yekununa dair protokol və quruma üzv ölkələrin gömrük idarələri arasında birgə əməkdaşlıq haqqında protokol imzalanıb. Sonda GUAM ölkələrinin hökumət başçıları qurumun gələcək strategiyası ilə bağlı mətbuat konfransı keçiriblər.

# YAP 126 səlahiyyətli nümayəndənin adını MSK-ya təqdim edib



Yeni Azərbaycan Partiyası növbədənkənar parlament seçkilərinə hazırdır, sadəcə olaraq namizədlər irəli sürüldükdən sonra digər proseslərə başlanılacaq. SİA-nın verdiyi məlumata görə, bunu Yeni Azərbaycan Partiyası (YAP) İcra Katibinin müavini, millət vəkili Siyavuş Novruzov deyib.S.Novruzov bildirib ki, YAP 126 nəfər səlahiyyətli nümayəndə və bir nəfər maliyyə məsələləri üzrə nümayəndənin adını Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edib: "MSK artıq bunu təsdiq edib. Yalnız partiyanın namizədlərinin irəli sürülməsi prosesi qalıb. Bununla bağlı işlər aparılır, proses gedir və bu işlər tamamlanandan sonra biz hər dairə üzrə namizədlərimizi irəli sürəcəyik və siyahını da Mərkəzi Seçki Komissiyasına təqdim edəcəyik".İcra katibi əlavə edib ki, Yeni Azərbaycan Partiyasının kifayət qədər potensialı və seçki təcrübəsi var: "Artıq hər bir dairə üzrə imza toplamaq üçün 10 nəfər müəyyən edilib".

# YAP İcra Katibliyində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib

***Dekabrın 12-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Ümummilli Liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***




Tədbirdə çıxış edən YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, tarixdə adı dövlətçiliyin simvoluna çevrilən və onunla birgə çəkilən çox az sayda siyasi liderə rast gəlmək olar. XX əsr tarixində fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik tarixin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyəri illər keçdikcə daha dərindən dərk olunur. Bu, Heydər Əliyev siyasətinin böyüklüyünün, bu günümüzə və gələcəyə hesablanmasının aydın ifadəsidir. Tarixi faktlar bu reallığı da təsdiqləyir ki, siyasi liderliyin mahiyyəti dövlətinin, xalqının milli maraqlarına cavab verən inkişaf yolunu müəyyənləşdirmək, ölkəsinə uğur gətirən, daim yüksəkləri fəth etməsini şərtləndirən siyasəti təmin etməkdir. Təbii ki, bu uğurlara yol açan ideyalardır. Bu ideyalar ölkənin dünəninin, bu gününün, gələcəyinin əsası kimi dəyərləndirilir. "Əbədiyaşar lider" məfhumu da məhz bu kontekstdən yaranır. Necə ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev belə xatırlanır. O, cismən aramızda olmasa da, onun siyasi xətti siyasi idarəçiliyin, milli quruculuğun nəzəriyyəsinə, alternativi olmayan dövlətçilik fəlsəfəsinə çevrilib.



S.Novruzov qeyd edib ki, XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə baş verən hadisələr ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışını şərtləndirdi. Azərbaycan xalqı müstəqilliyimizin ilk illərində böyük faciələrlə, çətinliklərlə üz-üzə qalsa da, 1993-cü ildə Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı və davamlı uğurlara yol açılması bu gün harada yaşamasından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı tərəfindən böyük qürur hissi ilə xatırlanır, gələcəyimizin daha parlaq, işıqlı olacağına böyük əminlik yaradır. Çünki bu yol hər günü Azərbaycanın tarixinə mühüm uğur səhifəsi kimi yazır. Məhz bunun nəticəsidir ki, ölkəmizin 28 ildə 100 ilə bərabər inkişaf yolu keçdiyi beynəlxalq səviyyədə də etiraf olunur və yüksək dəyərləndirilir. YAP icra katibinin müavini deyib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni-yeni uğurlara imza atır. Bu uğurların əsasında isə Ulu Öndərin müəyyənləşdirdiyi siyasət dayanır. Gənclər Heydər Əliyev irsini dərindən öyrənməlidir. Çünki Azərbaycanın xoşbəxt gələcəyi üçün Heydər Əliyev irsi mühüm rol oynayır.



YAP icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, ulu öndər Heydər Əliyevin anım günü xalqımız tərəfindən böyük ehtiramla yad edilir. Ümummilli lider Heydər Əliyev xalqımız üçün böyük bir siyasi irs, dövlətçilik məktəbi, dövlətçilik yolu qoyub. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqının yeganə yolu Heydər Əliyev yoludur. Heydər Əliyev elə böyük şəxsiyyətdir ki, onun xalqımız üçün gördüyü misilsiz işləri saymaqla bitirmək mümkün deyil. Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük tarixi şəxsiyyətlərdən biridir. Heydər Əliyev dövlət başçısı olması ilə bərabər çox həssas, insanlara qarşı çox diqqətli idi. Heydər Əliyevdə əsl lider xüsusiyyətləri və keyfiyyətləri vardı. Bir sözlə, ulu öndər Heydər Əliyev bizim yaddaşımızda silinməz izlər qoyub. Bu gün yeni nəsil Heydər Əliyevin nəhəng fəaliyyətini, onun zəngin irsini dərindən öyrənərək mənimsəyir.

M.Qurbanlı qeyd edib ki, bu gün Azərbaycan nəinki regionun lider dövlətidir, eyni zamanda, dünyada böyük nüfuza sahibdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı bütün sahələri əhatə edir, əhalinin rifahı davamlı olaraq yüksəlir, Azərbaycan gücünü, qüdrətini daha da artırır. Ölkəmizin həyata keçirdiyi qlobal layihələr beynəlxalq miqyasda Azərbaycanın mövqelərini gücləndirir. Bu nailiyyətlərin əsasında Heydər Əliyev siyasəti dayanır. Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsini həmişə yad edir və bundan sonra da edəcək.

Anım mərasimində, həmçinin YAP Qaradağ rayon təşkilatı Gənclər Birliyinin sədri Seyidməhəmməd Məmmədzadə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Günel Quliyeva və Bakı Dövlət Universitetinin tələbəsi Kənan Seyfullazadə çıxış edərək Heydər Əliyev siyasətinin uğurları, Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin əhəmiyyəti haqqında fikirlərini bildiriblər.

## Vitali İqnatenko: Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir



Heydər Əliyev zamanın fövqündə duran şəxsiyyətdir. Onu xatırladıqda böyük xoşbəxtlik hissi keçirirsən ki, haçansa sənə bu dahi şəxsiyyətin yanında olmaq səadəti nəsib olub.

AZƏRTAC xəbər verir ki, Rusiyanın TASS agentliyinin sabiq baş direktoru Vitali İqnatenko Azərbaycanın ümummilli lideri Heydər Əliyevi xatırlayarkən belə deyib. İqnatenko vurğulayıb ki, Heydər Əliyev özünün yüksək mədəniyyəti, güclü iradəsi, geniş intellekti sayəsində çox şeyə qadir idi. Heydər Əliyev Azərbaycan xalqının taleyüklü məsələləri ilə bağlı çox mühüm işlər görüb. Hər bir insanın taleyinə töhfə vermiş bu dahi şəxsiyyətin xatirəsi ildən-ilə yeni keyfiyyətlərlə zənginləşərək daim yaşayacaq. "Biz hamımız onun necə gözəl ata, baba, ömür-gün yoldaşı, silahdaşları üçün dost və yoldaş olduğunu xatırlamalıyıq. Düşünürəm ki, onun bu keyfiyyətləri hər zaman yaddaşlarda qalacaq. Heydər Əliyev ətrafdakılar üçün çox dərin düşüncəyə malik və önəmli bir insan idi. O, gələcək nəsillərə çox vacib miras qoyub. Heydər Əliyevi əvəz edən nəslin nümayəndələri onun şəxsiyyətinin miqyasının böyüklüyünü daim nəzərdən keçirməli, öyrənməli və lazımınca qiymətləndirməlidir", - deyə o vurğulayıb.

Heydər Əliyev ilə şəxsi görüşlərini yada salan tanınmış jurnalist deyib: "Prezident Administrasiyasında işlədiyim vaxt mənə yay mövsümü üçün xidməti bağ evi təklif etdilər. Böyük, gözəl və rahat bağ evi idi. Mən ona baxdıqdan və ən kiçik detalları nəzərdən keçirdikdən sonra elə təəssürat yarandı ki, sanki bağ evinin sahibi harasa çıxıb və indi qayıdacaq. Mən burada kimin yaşadığını soruşdum. Cavab verdilər: "Əliyev. O, indi xəstəxanadadır və bu bağ evinə qayıtmayacaq". Doğrusu, mən bundan çox pis oldum. Nəticə olaraq, mən bağ evindən imtina etdim. Məni gözləməyə məcbur etdilər və uzun müddət heç nə vermədilər... İllər ötdü, mən bu hadisəni unutdum. Bağ evinin xidmətçilərindən biri bu əhvalatı Heydər Əliyevə danışıb. Uzun illər sonra Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti oldu. Biz qəbulların birində görüşdük və o, həmin hadisəni mənim jurnalist həmkarlarıma danışdı. Onun bu əhvalatı xatırlaması məni çox təsirləndirdi".

## Erkan Özoral: Türk dünyasına Heydər Əliyev kimi lider hər zaman gəlmir



Türk dünyasına Heydər Əliyev kimi lider hər zaman gəlmir. AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 12-də Fəxri xiyabana ziyarətə gələn Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib. O bildirib ki, səfirliyin əməkdaşları, Azərbaycanda fəaliyyət göstərən türk iş adamları ilə birgə Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, məzarı önünə gül qoyub, ona ehtiramlarını bildiriblər.

"Heydər Əliyev həqiqətən həyatı araşdırılması vacib və gördüyü işlər, fəaliyyəti, davranışı hər kəsin nümunə götürməsi lazım olan dahi şəxsiyyətdir. O, bütün ömrü boyu Azərbaycanın suverenliyini düşünüb, onun müstəqillik qazanacağı günlərin xəyalını qurub, müstəqilliyin bərpasından sonra da ölkəsini necə inkişaf etdirməyi, gücləndirməyi, möhkəmləndirməyi düşünən, ömrünü bu amala həsr edən insan olub. Heydər Əliyev bu yolda öz həyatını təhlükə altına atıb, hər zaman öz canını qurban verməyə hazır olan biri idi", - deyə səfir vurğulayıb.

## Nazirlər Kabineti Aparatının rəhbərinin müavini: İslahatlar davam etdirilir

Nazirlər Kabinetində hazırda islahatlar davam etdirilir. Bununla bağlı jurnalistlərə açıqlama verən Nazirlər Kabineti Aparatının rəhbərinin müavini Natiq Məmmədov islahatların ümumilikdə bütün ölkədə aparıldığını bildirib: "Məlumdur ki, ölkəmizdə islahatlar gedir. Bununla əlaqədar Nazirlər Kabinetində də islahatlar aparılır və struktur dəyişikliyi edilib. Proses hazırda davam edir".

# Qətərin "The Peninsula" qəzetində ulu öndər Heydər Əliyev haqqında məqalə dərc olunub

***Qətərin nüfuzlu ingilisdilli "The Peninsula" qəzetində ulu öndər Heydər Əliyevə həsr olunmuş məqalə dərc edilib.***



Peninsula | THURSDAY 12 DECEMBER 2019 — HOME | 09

**Azerbaijan's national leader Heydar Aliyev commemorated in Qatar**

THE PENINSULA
DOHA

Azerbaijani Embassy and community in Qatar commemorate the 16th death anniversary of its national leader, Heydar Aliyev (pictured).

Sixteen years ago, on December 12 the Azerbaijani people with sadness and sorrowful bid farewell to their national leader. Since then as recognition of his role in establishing and building the modern state of Azerbaijan, its citizens and their friends from differentparts of the world remember this leader with more pride and gratitude.

President Heydar Aliyev, a great historical leader and founder of contemporary Azerbaijan, has dedicated his life to the development and prosperity of his country and people. He was born on May 10, 1923, in Nakhchivan, city of Azerbaijan and held high level official positions in former Soviet Union, such as First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan, member of Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union and First Deputy Chairman of the Cabinet of Ministers of the USSR.

In October 1987, Heydar Aliyev, protesting against the policy pursued by Political Bureau of the Central Committee of the Communist Party of the Soviet Union and personally the

**Azerbaijan maintains a delicate balance between regional actors and great powers, strengthening the nation's freedom while developing its economy, which in turn increases stability.**

Secretary General Michael Gorbachev, resigned from his position.

In July 1990, Heydar Aliyev returned to Azerbaijan. After the collapse of the Soviet Union and beginning of Armenian aggression against Azerbaijan, the country faced the threat of civil war and loss of independence. In such a difficult time the people of Azerbaijan invited Heydar Aliyev to Baku to retake the power and lead the country. On October 3, 1993, as a result of nationwide voting, Heydar Aliyev was elected President of the Republic of Azerbaijan.

As a result of Heydar Aliyev's far-sighted domestic and foreign policy, as well as intensive activities, Azerbaijan has started to play the role of a reliable bridge between the East and the West and become one of the most dynamic economies in the world. He has led Azerbaijan from disintegration and fragmentation to unity and stability, and from poverty to progress and prosperity in all aspects of life.

After the collapse of Soviet Union and gaining independence in the early 1990s, Azerbaijan faced a number of problems. One of the main problems was how to attract sufficient foreign investment to develop the country's hydrocarbon reserves, as there was still a risk associated with doing business in this part of the world, as well as technical, financial and other problems.

In such conditions Heydar Aliyev who returned to Azerbaijan by the request of the people stood with the slogan "Oil is the national wealth of Azerbaijan" and engaged in the development and restoration of the country's oil industry. In 1994, during the first year of his presidency, Azerbaijan signed the Contract of the Century – an unprecedented multi-billion dollar production-sharing agreement with foreign oil companies. This was the first and largest contract of its type ever signed in the former Soviet Union and the results followed when Azerbaijan's economy recorded the fastest growth in the world.

His vision and strategy enhanced regional cooperation in the South Caucasus, which benefited Azerbaijan's neighbours. The Baku-Tbilisi-Ceyhan oil and the Baku-Tbilisi-Erzurum gas pipelines have transformed strategic realities in the South Caucasus. The energy networks of Azerbaijan, Georgia and Turkey have become more integrated, increasing the significance of the East-West energy corridor.

On October 11, 1998, gaining 76,1 percent of the votes, Heydar Aliyev was re-elected President of the Republic of Azerbaijan.

At the hands of the late president, great successes were achieved at various levels and fields. He also always believed in Azerbaijan's belonging to the Islamic world. Based on this principle, he sought to consolidate fraternal relations with brotherly Muslim countries.

During his presidency the relations between Azerbaijan and the Organization of Islamic Cooperation began expanding and they continue today with all success.

On December 12, 2003 national leader of the Azerbaijani people, President Heydar Aliyev passed away.

Now, looking back on what Heydar Aliyev gave to his country, you may be sure that Azerbaijan has achieved tremendous successes in building a prosperous nation by following his vision and strategy.

Azerbaijan maintains a delicate balance between regional actors and great powers, strengthening the nation's freedom while developing its economy, which in turn increases stability. Today, the Republic of Azerbaijan is an initiator and an important participant in a number of international projects.

Some international projects such as Baku Process, World Forum on Intercultural Dialogue, Baku Humanitarian Forum, Baku-Tbilisi-Ceyhan Main Export Pipeline, Baku-Tbilisi-Erzurum Gas Pipeline, Baku-Tbilisi-Kars Railway, Southern Gas Corridor, South Caucasus Pipeline which is also part of Southern Gas Corridor, also TANAP and TAP projects, as well as trilateral cooperation formats with a number of neighboring countries, have become reality on the initiative or with the support of Azerbaijan.

The work on the East-West and North-South transport corridors is currently underway.

Today, Heydar Aliyev lives in the memories and hearts of all Azerbaijanis. He will remain with Azerbaijani people eternally through his ideas and the works he accomplished for the prosperity and future of Azerbaijan.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan xalqının, o cümlədən Azərbaycanın Qətərdəki səfirliyi və Qətərdə yaşayan Azərbaycan icmasının dekabrın 12-də ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümünü hüzn və kədərlə andığı qeyd edilib. Müasir Azərbaycanın qurucusu və Azərbaycanın böyük tarixi lideri olan Heydər Əliyevin ömrünü ölkəsinin və xalqının inkişafına və çiçəklənməsinə həsr etdiyi bildirilən məqalədə Ulu Öndərin həyatı və siyasi fəaliyyəti, eləcə də onun Azərbaycan xalqı qarşısında xidmətləri barədə məlumat verilib.

Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi çətinliklərə və erməni işğalına toxunularaq həmin illərdə ölkənin vətəndaş müharibəsi və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalqın Heydər Əliyevdən yenidən hakimiyyətə gəlməyi tələb etdiyi xatırlanıb, onun 1993-cü və 1998-ci illərdə iki dəfə ölkə Prezidenti seçildiyi diqqətə çatdırılıb. Heydər Əliyevin ölkəsinin müstəqilliyinin qorunması istiqamətində gördüyü işlərdən danışılıb.

Məqalədə Ümummilli Liderin istər sovet hakimiyyəti illərində, istərsə də Azərbaycan müstəqillik qazandıqdan sonrakı dövrdə ölkəyə rəhbərlik etdiyi vaxtlarda əldə olunmuş nailiyyətlər, o cümlədən Ulu Öndərin neft-qaz strategiyası, "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri barədə geniş məlumat verilib. Yazıda ümummilli lider Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti və aktiv fəaliyyəti sayəsində ölkənin Şərq ilə Qərb arasında etibarlı körpü rolunu oynadığı və dünyanın ən dinamik iqtisadiyyatına sahib dövlətlərdən birinə çevrildiyi nəzərə çatdırılıb.

Məqalədə Heydər Əliyevin qardaş müsəlman ölkələri ilə münasibətlərin inkişafı və möhkəmləndirilməsinə də böyük diqqət ayırdığı qeyd olunub. Onun prezidentliyi dövründə Azərbaycanla İslam Əməkdaşlıq Təşkilatı arasında münasibətlərin genişlənməyə başladığı və bu gün də uğurla davam etdiyi bildirilib.

Yazıda, həmçinin Ümummilli Liderin baxış və strategiyasını izləməklə müasir Azərbaycanın nail olduğu uğurlara toxunulub. Bildirilib ki, bu gün Azərbaycan regional aktorlar və böyük güclər arasında incə tarazlığı qoruyur, öz iqtisadiyyatını inkişaf etdirir. Bu gün Azərbaycan Respublikası bir sıra beynəlxalq layihələrin təşəbbüskarı və vacib iştirakçısıdır. "Bakı Prosesi", Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Humanitar Forumu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, Cənubi Qafqaz Boru Kəməri kimi bir sıra beynəlxalq layihələr, eyni zamanda, TANAP və TAP layihələri, bir sıra qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatları məhz Azərbaycanın təşəbbüsü və ya dəstəyi ilə reallığa çevrilib. Hazırda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində işlər davam etdirilir. Məqalədə Heydər Əliyevin bütün azərbaycanlıların qəlbində yaşadığı bildirilib.

# "Heydər Əliyevi hakimiyyətə gətirən xalqa olan sevgisi idi"

***"Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi respublikamızın həyatında dönüş nöqtəsidir". Bunu SİA-ya açıqlamasında SƏS Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev deyib.***



Baş redaktorun sözlərinə görə, Ulu Öndər öz zamanında xilaskarlıq missiyasını yerinə yetirib. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdiyi dövrdə çox ağır vəziyyətdə idi, dövlət faktiki olaraq dağılırdı və separatizm cəhdləri ölkəni içəridən parçalayırdı. Belə bir dövrdə həqiqətən də liderə ehtiyac var idi. O liderə ehtiyac var idi ki, o həm xalqın etimadını doğrultsun, həm də qəlbən Azərbaycana və öz xalqına bağlı olsun. O isə hələ 1969-cu illərdə öz fəaliyyəti ilə dövlətə və xalqa sevgisini çatdırmış Lider Heydər Əliyev idi. Bu səbəbdən 1992-ci il 16 oktyabrda 91 Azərbaycan ziyalısı "SƏS" qəzeti vasitəsilə Azərbaycanın müstəqilliyini qorumaq üçün Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Xalq özünə bir lider istəyirdi. Heydər Əliyev xalqın qəlbində idi. Hamı bilirdi ki, Azərbaycanı Heydər Əliyevdən başqa heç kim xilas edə bilməyəcək. Ümummilli Lider Heydər Əliyev "SƏS" qəzeti vasitəsilə Azəbaycanın xilas olması konsepsiyasını təqdim etdi. Orada hökumətin atmalı olduğu addımları, çıxış yollarını göstərdi. Mən bunu Azərbaycanın "xilas konsepsiyası" adlandırardım. O zaman xalq təkidlə Heydər Əliyevin hakimiyyətə qayıtmasını istəyirdi və belə də oldu. Məhz Ulu Öndərin qayıdışı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı, ölkəmiz bütün bəlalardan xilas oldu. O zaman Azərbaycanı Lider-xalq sevgisi xilas etdi, bu gün də ölkəmizin möhkəmlənməsinə, inkişafına xidmət edir".

B.Quliyev əlavə edib ki, o dövrdə iqtisadi, mədəni, mənəvi sahədə vəziyyət çox ağır idi və vətəndaş müharibəsi gedirdi: "Belə bir dövrdə Liderin ən böyük missiyası ondan ibarət idi ki, bu ağır gündə xalqının yanında olsun və Ulu Öndər bunu bacardı. Heydər Əliyevi hakimiyyətə gətirən xalqa olan sevgisi idi. Azərbaycanın ən böyük uğurları və qələbəsi budur ki, bugünkü Azərbaycan əbədi olaraq müstəqilliyinə qovuşub. Bu gün Azərbaycan sözün əsl mənasında dünyanın çağırışlarına cavab verən və regionda ən böyük, ən güclü dövlətə çevrilən bir Azərbaycandır. Çox yaxşı haldır ki, bu gün Ulu Öndərin bünövrəsini qoyduğu müstəqil Azərbaycan uğurla inkişaf edir. Cənab Prezident İlham Əliyev Ümummilli Liderin ən layiqli davamçısı kimi bu işi layiqincə yerinə yetirir. Ən əsası odur ki, Heydər Əliyev Fondu Ulu Öndərin xeyirxah əməllərini, irsini məharətlə davam etdirir, bu irsi yaşadır və gələcək nəsillərə ötürə bilir".

## Hikmət Hacıyev: Ermənistan tərəfindən səsləndirilən ziddiyyətli bəyanatlar danışıqlar prosesinə ciddi xələl gətirir



Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqlar prosesi davam etdirilir, lakin Ermənistan yenə də destruktiv siyasətini davam etdirir. AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi ? Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistan danışıqlar prosesinə bu və ya digər şəkildə manеələr yaradır. İlk növbədə, Ermənistan tərəfindən səsləndirilən ziddiyyətli bəyanatlar danışıqlar prosesinə ciddi şəkildə xələl gətirir.

Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərlərinə toxunan Hikmət Hacıyev deyib ki, erməni jurnalistlərin Azərbaycana səfər edərək öz gözləri ilə gördükləri barədə erməni ictimaiyyətini məlumatlandırmaları vacib şərtlərdən biridir. Nəzərə almaq lazımdır ki, Ermənistanda dövlət səviyyəsində çox ciddi təbliğat aparılır, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsasları və səbəbləri ciddi şəkildə təhrif edilir. Belə bir şəraitdə münaqişə ilə bağlı Azərbaycanın baxışı barədə jurnalistlərin Ermənistan ictimaiyyətini məlumatlandırmalarına ehtiyac var idi. Bu əsasda da ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə jurnalistlərin qarşılıqlı səfərləri həyata keçirildi. Bu, həyata keçirilən ilk təşəbbüslərdən biri idi. Azərbaycan və Ermənistan QHT-lərinin qarşılıqlı səfərlərinə dair təşəbbüslər barədə isə hələlik məlumat yoxdur".

## DSX: Ötən gün ölkəmizə cari ildə üç milyonuncu əcnəbi turist daxil olub



Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illər ərzində digər dövlətlərlə sosial-iqtisadi münasibətlərin inkişafı, qarşılıqlı faydalı ticarət əlaqələrinin və ölkəmizə turizm axınının genişlənməsi ilə əlaqədar ölkəmizə gələn və gedən şəxslərin və nəqliyyat vasitələrinin sayı əhəmiyyətli dərəcədə artıb.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə dövlət sərhədindən keçən şəxslərin sayı 13 faiz, nəqliyyat vasitələrinin sayı isə 12 faiz çox olub. Belə bir şəraitdə DSX Sərhəd Nəzarəti əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi, dövlət sərhədindən keçənlərin sərhəd nəzarətinin səmərəliliyindən məmnuniyyətlərinin yüksəldilməsi, şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin keçirilməsi müddətlərinin maksimal azaldılması və sürətli keçidinin təmin olunması istiqamətində mühüm işlər görülüb. Nəticədə bir şəxsin sərhədkeçmə prosedurunun rəsmiləşdirilməsinə bir dəqiqədən az vaxtın sərf edilməsinə nail olunub.

Respublikamıza turist axınının artırılması üzrə ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər nəticəsində dekabrın 11-də ölkəmizə il ərzində 3 milyonuncu xarici qonağın gəlişi qeydə alınıb. Həmin şəxs Ankara-Bakı reysi ilə uçub gəlmiş Türkiyə vətəndaşı Seda Ünlü olub. Sərhədçilər tərəfindən gül dəstəsi və simvolik hədiyyələr ilə qarşılanan qonaq bu xoş sürprizdən çox məmnun qaldığını söyləyib və minnətdarlığını bildirib.

## Fevzi Əkrəm Terzioğlu: Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi sayəsində Azərbaycan əzəmətli inkişaf yolu keçib



Azərbaycan böyük uğurlar əldə edib və bu uğurlar deməyə əsas verir ki, ölkənin gələcəyi daha parlaqdır. Bütün bunların əsasını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qoyub. Bu fikirləri AZƏRTAC-a açıqlamasında İraq Ədəbiyyatçılar və Yazıçılar Birliyinin türkmən mədəniyyət bürosunun sədri, İraq parlamentinin sabiq üzvü Fevzi Əkrəm Terzioğlu söyləyib.

Fevzi Əkrəm Terzioğlu bildirib ki, xalqların və ölkələrin taleyini liderlər həll edir. Keçmiş Sovet İttifaqının süqutu illərində ermənilərin Azərbaycana qarşı ərazi iddiaları fonunda ölkə çətin sınaqlardan çıxdı, şəhidlər verdi, ərazisinin bir qismi təcavüzkar Ermənistan tərəfindən işğal olundu. Bütün bu ağrılara baxmayaraq, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi sayəsində Azərbaycan bəlalardan xilas oldu və ötən dövrdə əzəmətli inkişaf yolu keçib. Bu gün Azərbaycanda Heydər Əliyevin ideyaları yaşayır. Ümumiyyətlə, xilaskar liderlərin ideyaları əbədiyaşar olur. Ulu öndər Heydər Əliyev öz xalqını təlatümlərdən xilas edən liderlər sırasında özünə layiqli bir yer qazanıb.

# Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan mədəniyyətinin və incəsənətinin böyük himayədarı idi

*Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayevin yap.org.az-a müsahibəsi*

***- Əbülfəs müəllim, dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür. Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə mədəniyyət məsələlərinə də böyük diqqət göstərib, xalqımızın mədəni dəyərlərinin qorunmasını və inkişafını vacib məsələlərdən biri kimi qiymətləndirib. Sovetlər dönəmində də milli özünüdərkin, özünəqayıdışın əsası da məhz Ulu Öndərimiz tərəfindən qoyulub ki, burada tarixi, milli mədəniyyətimizin qorunması əsas istiqamətlərdən biri kimi nəzərdən keçirilir. Bunυnla bağlı sizin fikirlərinizi bilmək istərdik...***

- Bu gün tarixi məsafədən baxarkən əminliklə deyə biləri ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının taleyində, dövlətçiliyimizin tarixində əvəzolunmaz iz qoymuş, xidmətlər göstərmişdir. Heydər Əliyevin qoyduğu mirası kimləsə müqayisə etmək mümkün deyil. Çünki Heydər Əliyev öz özlüyündə bir rəmzə çevrilib. Bu rəmz Azərbaycan xalqının milli, mənəvi, siyasi, iqtisadi, tarixi və gələcəyin amallarını özündə birləşdirən edən bir rəmzdir. Ona görə də, Heydər Əliyev irsi, siyasi kursu bu gün əks-səda verir və bu amil Onun əvəzolunmazlığını sübut edir.

Ulu Öndər Heydər Əliyev bütün sahələr üzrə ölkəmizin inkişafında çox böyük mexanizm qurmuş və inkişafa böyük təkan vermiş insandır. Azərbaycan xalqının dövlətçilik tarixində çoxlu sayda hökmdarlar, sərkərdələr, müxtəlif dövrlərin müxtəlif xüsusiyyətlərinə uyğun olaraq çox önəmli işlər görmüş xadimlər olub. Biz onlarla fəxr edirik. Lakin biz artıq müasir dövrdə yaşayırıq və müasir tariximizin təhlili onu göstərir ki, 1969-cu ildən etibarən Heydər Əliyev Azərbaycan rəhbərliyinə gələndən sonra xalqımızın, dövlətimizin və cəmiyyətimizin quruluşunda, təfəkküründə yeni bir mərhələ başladı.

Ümummilli Lider Heydər Əliyevin respublikamızın rəhbərliyinə gəlişi ilə iqtisadiyyat görünməmiş dərəcədə inkişafa doğru irəliləməyə başladı, kənd təsərrüfatı rekord göstəricilər qazandı. Pamçıqçılıq, üzümçülük və s. sahələr əhəmiyyətli dərəcədə inkişaf etdi, yeni-yeni müəssisələr yaradıldı. Azərbaycan artıq təkcə neft istehsal edən respublika kimi yox, bütün sahələri inkişaf etdirən respublikaya çevrilməyə başladı. Bu günkü dinamik inkişafımızın təməli də o dövrdə qoyulub. Fikrimcə, bu siyasətin nəticəsidir ki, hazırda Azərbaycan demək olar ki, özünü 100 faiz təmin etmək iqtidarında olan dövlətə çevrilir.

***- Həmin dövrdə iqtisadiyyatın inkişafı ilə yanaşı mənəvi dəyərlər amili də xüsusi diqqət mərkəzində idi...***

- Sözsüz ki, bu hərtərəfli inkişafın fonunda mənəvi proseslər olduqca vacib yer tutur. O vaxt iqtisadiyyatın inkişafı ilə bağlı olan müşavirələrdə mütləq tanınmış ziyalılar, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər. Və bu insanların yeni mühitdə qəhrəmancasına göstərdikləri əmək, zəhmət artıq ədəbiyyatda, rəsm əsərlərində, musiqidə öz əksini tapmağa başladı. Bununla da, cəmiyyətin ziyalı təbəqəsi, daha mütərəqqi və təhsilli olan təbəqə bu əməyi yeni nəzər-nöqtəsində təqdim etməyə başladı. Bütün bunların ideya müəllifi isə Ulu Öndər Heydər Əliyev idi. Heydər Əliyev bu qəhrəmanları teatr səhnələrinə gətirirdi. Eləcə də, həmin qəhrəmanlar haqqında musiqi əsərləri yaradılırdı, rəsm əsərlərində, fırça ustalarının yaradıcılığında əmək qəhrəmanları əksini tapırdı. Təbii ki, bunların hamısı vahid siyasətin axını idi. Heydər Əliyev bununla Azərbaycan xalqının təşəkküründə yeni bir anlayışları, kriteriyaları formalaşdırmağa başladı. Mən bu məsələlərə fəlsəfi mənada baxıram. Çünki cəmiyyətdə bu əməyə yeni formada baxaraq onun dəyərini bilməyə başladılar. Bununla da, həmin zəhmətkeş insanların əməyinə həm ictimaiyyət, həm də dövlət tərəfindən yeni bir münasibət çalarları öz əksini tapırdı.

Ulu Öndər Heydər Əliyev həmçinin insanların əməyinin dəyərləndirilməsinə xüsusi önəm verərək onu vahid siyasət çərçivəsində həyata keçirirdi. Bilirsiniz ki, sovetlər dövründə iqtisadiyyatın, kənd təsərrüfatının inkişafında bizim çoxlu əmək qəhrəmanlarımız var idi. Və həmin insanlar Heydər Əliyevin sayəsində keçmiş SSRİ-nin ən yüksək orden və medalları, dövlət mükafatları ilə təltif olundular. Məsələn, keçmiş ittifaq miqyasında xeyli sayda azərbaycanlı Sosialist Əməyi qəhrəmanları var idi və və s.

Buna paralel olaraq həmin zəhmətkeşlərin əməyini öz yaradıcılığında əks etdirən Azərbaycan yazıçılarının, musiqiçilərinin, rəssamlarının əməyi də yüksək dəyərləndirilirdi. Onlar da keçmiş Sovet İttifaqı miqyasında ən yüksək orden və dövlət mükafatları ilə təltif olunurdular. Bütün bunlar sözsüz ki, bilavasitə Ulu Öndər Heydər Əliyevin xidməti idi. Biz bu gün Bakı şəhərini gəzərkən Fikrət Əmirovun, Rəşid Behbudovun, Qara Qarayevin və digər yaradıcı insanların heykəllərini görürük. Bu qəhrəmanlar hələ o vaxt Sovet İttifaqının ən uca zirvəsində durmuş insanlar idi.

***- Ulu Öndər Heydər Əliyev sovetlər dönəmində də Azərbaycan gəncliyinin inkişafına xüsusi diqqət yetirib. Sizcə, bu amili şərtləndirən səbəblər nə idi?***

- Bu çox vacib məqam idi. Məsələ ondan ibarət idi ki, Heydər Əliyev gənc nəslin yüksək biliklər qazanmasına, milli ruhda formalaşmasına xüsusi önəm verirdi. Biz bəlkə də, bunun əhəmiyyətini sonradan dərk etməyə başladıq. Amma Onun birinci hakimiyyəti dövründə minlərlə gəncimiz keçmiş SSRİ-nin məşhur ali məktəblərinə təhsil almağa göndərildi. Gənclər daha çox o ixtisaslar üzrə təhsil almağa göndərilirdi ki, o sahələrdə Azərbaycanda mütəxəssis çatışmırdı.

Eyni zamanda, rəssamlıq akademiyalarına, musiqi akademiyalarına, ədəbiyyat institutlarına da gənclər təhsil almağa göndərilirdi. Bunların hamısı Azərbaycan yaradıcı insanlarının əməyinin müasir çərçivədə həyata keçirilməsinə zəmin yaratdı. Bu insanlardan sonra 1960-cı illərin qəhrəmanları ortaya çıxdı. Heydər Əliyev də həmin insanları, bütövlükdə yeni təfəkkürü, yeni düşüncə tərzini müdafiə edirdi. Azərbaycanın müstəqillik ideyalarını sovetlər dönəmində ortaya qoymaq çox çətin idi. Amma bununla belə əsərlər yazılırdı, rəsmlər əsərləri yaradılırdı, teatrda səhnələr qoyulurdu. Heydər Əliyev bu teatr tamaşalarında iştirak edərək həmin insanların yaradıcılığına böyük dəyər verirdi. Bütün bunlar onların yaradıcılıq prosesinə çox müsbət təsir göstərirdi. Heydər Əliyevin gücü də bunda idi.

Müstəqillik dövründə isə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı yeni çağırışlarla müşayiət olunurdu. Bu dövr Azərbaycanı müstəqil dövlət kimi dünyada tanıtmaq, Azərbaycan xalqının yaradıcı potensialını gücləndirmək, təkcə keçmiş Sovet İttifaqı məkanında deyil, bütövlükdə dünya miqyasında Azərbaycanın qədim tarixini, müasir mədəniyyətini təbliğ etmək, onu gücləndirmək, beynəlxalq səviyyədə gedən prosesləri təbliğ etməklə bu sahənin inkişafını təmin etməklə səciyyələnirdi. Ulu Öndər Heydər Əliyev bu məsələlərə ciddi nəzarət edirdi.

Bilirsiniz ki, hələ sovetlər dönəmində UNESKO səviyyəsində Azərbaycanın mütəfəkkir şairi Nəsiminin 600 illik yubileyi keçirildi. O vaxta qədər Azərbaycanın adı həmin təşkilatda yox idi. Düşünürəm ki, Heydər Əliyevin sayəsində UNESKO səviyyəsində keçirilən həmin tədbir məhz bu günümüz üçün də zəmin yaratmış oldu. İndi Azərbaycan UNESKO çərçivəsində özünəməxsus yer tutur, Azərbaycanın tarix, mədəniyyət nümunələri bəşəriyyət tərəfindən qorunan abidələr kimi qəbul olunub. Amma bütün bunlar üçün zəminin yaradılması, bünövrənin formalaşdırılması o vaxt Heydər Əliyevin başladığı siyasət idi. Ümummilli Liderimiz Heydər Əliyev çox tələbkar, qüdrətli rəhbər, uzaqgörən strateq olaraq bütün bunların hamısını gördü.

Eyni zamanda, Heydər Əliyev çox insani keyfiyyətlərlə zəngin bir insan idi. O, yaradıcı insanlar arasında bəzən ortaya çıxan çətinliklər, problemlər, ziddiyyətlərin nə qədər böyük ustalıqla, səbrlə və peşəkarlıqla həll edilməsinə kömək göstərirdi. Eləcə də, onların yaradıcılıq prosesinə ciddi dəstək göstərirdi, sosial məsələlərinin həlli idi yaxından məşğul idi. Bütün bunlarla yanaşı Heydər Əliyevin yaradıcı insanlarla şəxsi münasibətləri də yüksək səviyyədə idi.

***- Ümummilli Lider Heydər Əliyevin yüksək etimad göstərdiyi şəxslərdən biri də Siz olmusunuz...***

- Xoşbəxtəm ki, 1994-cü ildən etibarən Ulu Öndər Heydər Əliyevlə çalışmışam, Onun tərəfindən Gənclər və İdman naziri təyin olunmuşam. Bu mühüm vəzifənin mənə tapşırılması mənim üçün çox böyük sınaq, məktəb və etimad idi. Mən bu etimadı heç vaxt itirən deyiləm. Çünki Heydər Əliyev məktəbini uğurla keçmiş insan heç vaxt bu məktəbi yaddan çıxarmayacaq.

Ulu Öndər Heydər Əliyev Azərbaycanda gənclər hərəkatının formalaşdırılmasına, demokratik inkişafın təmin edilməsində misilsiz xidmətlər göstərib. Bütün bunların bunların hamısı gözümüzün qarşısındadır. O vaxt gənclər hərəkatında təmsil olunan insanlar bu gün müxtəlif vəzifələrdə çalışırlar, müxtəlif ictimai hərəkatlara rəhbərlik edirlər və s. Mən fəxr edirəm ki, Heydər Əliyevin siyasətinin həyata keçirilməsində zərrə qədər də olsa payım var. Bu mənim üçün çox böyük şərəfdir.

***- Mədəniyyət xadimlərimiz Ulu Öndərlə bağlı xatirələrini bölüşərkən birmənalı şəkildə Onun yüksək diqqət və qayğısını vurğulayır, yeni dövrdə mədəni intibahımızın Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirirlər. Bu fikirlərin ifadə etdiyi, söykəndiyi başlıca həqiqətlər nədən ibarətdir?***

- Ümummilli Lider Heydər Əliyev çox dərin biliyi, dünyagörüşü, təfəkkürünün zənginliyi ilə həmişə yaradıcı proseslərə maraq göstərib. Bu ondan irəli gəlir ki, Heydər Əliyev görürdü ki, hər bir insan hansı yerdə müvəffəqiyyət əldə etmək istəyirsə, əgər xalq inkişaf etmək istəyirsə mütləq yaradıcı qabiliyyəti yüksəlməlidir. Heydər Əliyev bu amilə önəm verməklə məhz yaradıcı insanların keyfiyyətini yüksəldirdi və bununla da bütün cəmiyyətə təsir göstərirdi. O çox müdrik siyasətçi idi. Zaman geçdikcə biz Heydər Əliyevin böyüklüyünü daha dərindən dərk edəcəyik və Onun müəyyənləşdirdiyi siyasətin xalqımıza nə qədər böyük inkişaf imkanları yaratması haqqında gələcəkdə də çox danışılacaq.

***- Bu gün Prezident İlham Əliyev bütün sahələrdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursu uğurla davam etdirir. O cümlədən, mədəniyyət sahəsində də Heydər Əliyev siyasəti ardıcıllıqla həyata keçirilir. Bu gün Azərbaycan öz mədəni, mənəvi dəyərləri ilə uğurla inteqrasiya olunur, dünya birliyində layiqincə təmsil olunur. Siz yeni dövrdə Azərbaycanın mədəniyyət sahəsində qazandığı nailiyyətlər haqqında nə deyə bilərsiniz?***

- Təbii ki, hər bir inkişaf özündən əvvəlki təmələ söykənir. Qeyd etdiyim kimi Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 1970-80-ci illərində respublikaya rəhbərliyi dövründə bir çox sahələrdə gələcək inkişafın möhkəm əsasları yaradılıb, bu illərdə mədəniyyətimiz özünün intibah dövrünü yaşayıb. Mədəniyyətimizin böyük himayədarı müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə də bu sahəyə diqqət və qayğısını əsirgəməyib. Sözün əsl mənasında Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan mədəniyyətinin və incəsənətinin böyük himayədarı idi.

2003-cü ildən sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu Öndərin dövlətçilik kursunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə ölkəmiz dinamik və sürətli inkişaf dövrünü yaşayır. Bu tərəqqi mədəniyyət sahəsində də yeni layihələrin, dövlət proqramlarının həyata keçirilməsi, müasir maddi-texniki bazanın, infrastrukturun yaradılması, yaradıcı fəaliyyətin yüksəldilməsi ilə müşayiət olunub. Bu dövrdə iqtisadi inkişaf tempinin sürətlə artması, ölkə həyatının bütün sahələrində olduğu kimi, mədəniyyət sektorunun da inkişafına, bu sahədə uzunmüddətli proqramlara zəmin yaratdı.

Bu yerdə bir məqamı xüsusi vurğulamaq istərdim. Prezident İlham Əliyevin respublikaya rəhbərliyi ilk illərdən tarixi və milli-mədəni irsə bağlılıqla bərabər, modernləşmə, qabaqcıl dünya təcrübəsinin tətbiqi və islahatlarla müşayiət olunub. Ötən dövrdə qarşıya qoyulan vəzifələrdən biri də mədəniyyət obyektlərinin, ilk növbədə kütləvi nümayiş məkanları olan teatr və muzeylərin yüksək səviyyədə təmir-bərpası, ölkənin müasir inkişafını təcəssüm etdirən yeni mədəniyyət ocaqlarının yaradılması ilə bağlı idi. Ötən illər ərzində cənab Prezident tərəfindən mədəniyyət sahəsinə göstərilən diqqət, bu sahələrlə bağlı imzalanan Fərman və sərəncamlar bu vəzifələrin yerinə yetirilməsinə əsaslı zəmin olub.

Eyni zamanda, yaradıcı insanlara dövlət qayğısı hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən yeni bir üslubda və formada davam edir. Çünki hər bir yeni üslub vaxta və dövrə uyğun bir dəyişikliyə məruz qalmalıdır. Amma bu siyasət davam etməkdədir. Bu yaxınlarda cənab Prezident tərəfindən yaradıcı insanlara göstərilən dəstək onu sübut edir ki, Heydər Əliyev siyasəti bu gün yaşayır və uğurla həyata keçirilir.

***- Əbülfəs müəllim, bu gün Heydər Əliyevin zəngin irsi və böyük ideyaları respublikamızda dərindən öyrənilir və təbliğ olunur. Bu prosesdə Ulu Öndərimizin adını daşıyan Heydər Əliyev Fondunun böyük xidmətləri və rolu xüsusi vurğulanmalıdır. Bu barədə də fikirlərinizi bilmək istərdik...***

- Bu gün Heydər Əliyev Fondu tərəfindən Heydər Əliyev irsinə çox böyük həssaslıqla, hörmətlə yanaşılır və Ulu Öndərimizin zəngin irsi geniş şəkildə təbliğ olunur. Bu gün xüsusilə gənc nəslimiz üçün Heydər Əliyevin ideyalarının, zəngin irsinin aşılanması vacib amildir və Fond bu vəzifəni uğurla yerinə yetirir.

Eyni zamanda, Heydər Əliyev Fondu bu gün Azərbaycanın mədəniyyətinin, təhsilinin, sosial işinin aparıcı qüvvəsi kimi çıxış edir. Fondun rəhbəri Mehriban xanım Əliyeva eyni zamanda ölkəmizin Birinci vitse-prezidentidir. Təcrübə göstərdi ki, son illər onun rəhbərlik etdiyi layihələr nə qədər böyük uğurla həyata keçirilir və dünya ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. Əsas odur ki, bütün bunları xalqımız yüksək qiymətləndirir. Azərbaycan xalqı Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyətini əyani olaraq görür, öz həyatında hiss edir və düşünürəm ki, bu da çox vacib bir amildir. Xalqımız bu gün Heydər Əliyev Fonduna və onun rəhbəri Mehriban xanım Əliyevaya göstərdiyi münasibət vasitəsilə Ulu Öndər Heydər Əliyevin adını daim öz yaddaşında uca saxlayır, Onu dərin ehtiramla yad edir və Heydər Əliyevin obrazı bu gün müasir dövrdə məhz Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond vasitəsilə yaşamaqda, inkişafda və cəmiyyətin həyatında iştiraka davam etməkdədir.



# Fəxri xiyabanda yaşanan izdiham xalqın öz böyük oğluna tükənməz məhəbbətini bir daha nümayiş etdirirdi

## *Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin xatirəsini böyük ehtiramla anıb*

***Dekabrın 12-də səhər saatlarından başlayaraq insanlar axın-axın Fəxri xiyabana gəlir, ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini anırdılar. Fəxri xiyabanda yaşanan bu izdiham xalqın öz böyük oğluna tükənməz məhəbbət və ehtiramını bir daha nümayiş etdirirdi.***

AZƏRTAC xəbər verir ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsini yad etməyə gələnlər arasında müxtəlif təbəqələri təmsil edən, hər yaşda olan insanlar - hərbçilər, dövlət təşkilatlarının nümayəndələri, elm və mədəniyyət xadimləri, təhsil və tibb işçiləri, veteranlar, gənclər və başqaları vardı. Ulu Öndərin Fəxri xiyabandakı məzarını Azərbaycanda fəaliyyət göstərən diplomatlar, paytaxtımızın qonaqları da ziyarət edirdilər.



Azərbaycanın müasir tarixi, keçdiyi inkişaf yolu bu dahi şəxsiyyətin adı ilə sıx bağlıdır. Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin qorunması və inkişafı istiqamətində qoyduğu möhkəm təməl son 16 ildə davamlı uğurları təmin edib. Qədirbilən insanlar Vətəni və xalqı qarşısında misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin xatirəsini daim əziz tuturlar.

Anım mərasimlərinin iştirakçıları AZƏRTAC-ın müxbirlərinə müsahibələrində Ulu Öndərin xidmətlərindən danışıb, müasir tariximizdə silinməz iz qoymuş bu dahi şəxsiyyət haqqında ürək sözlərini dilə gətirib, xatirələrini bölüşüblər.

Tarix üzrə fəlsəfə doktoru, professor Vəli Əliyev: Ulu öndər Heydər Əliyev təkrarolunmaz dahi şəxsiyyətdir. Ümummilli Liderimiz Azərbaycan dilini, tarixini və mədəniyyətini dünyaya tanıtdırdı. Ulu Öndərin hələ Sovet Azərbaycanına rəhbərliyi dövründəki çoxşaxəli fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq duyğularının baş qaldırmasına səbəb olub. Taleyinə qurmaq və yaratmaq missiyası yazılmış Heydər Əliyev müasir tələblərə cavab verən kadr potensialı hazırlanmasına böyük diqqət yetirir, onları xalqın qızıl fondu hesab edirdi. Ümummilli lider Heydər Əliyev azərbaycanlı olması ilə fəxr etdiyi kimi, Azərbaycan xalqı da öz böyük oğlu ilə qürur duyur. "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" kimi qiymətləndirilən zaman kəsiyi ərzində Ulu Öndərimiz tərəfindən görülən böyük işlər onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyasının məntiqi nəticəsidir. Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət qurulub, milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara uyğun köklü islahatlar aparılıb.



Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov: Ümummilli Lider gənclərin inkişafına, onların mükəmməl təhsil almasına böyük diqqət göstərirdi. Azərbaycanda müasir gənclər siyasətinin əsasını qoyan Heydər Əliyevin hələ 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə yüzlərlə yeni tədris ocağı, o cümlədən hərbi məktəblər açılıb, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil alaraq müasir ixtisaslara yiyələniblər. Onun şəxsi təşəbbüsü və qayğısı sayəsində o vaxt Sovet İttifaqının 50-dən çox şəhərindəki 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına şərait yaradılıb. 1993-cü ildə xalqın çağırışı ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gəncliyin inkişafı olub. Ulu Öndərimizin gənclərlə çoxsaylı görüşləri, onlara verdiyi dəyərli tövsiyələr gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşməsində mühüm rol oynayıb. Həmin dövrdə gənclərin problemlərinin həllini təmin edən sərəncamların imzalanması, qanunların qəbul edilməsi, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması istiqamətində ardıcıl addımlar atılıb. Bununla da Azərbaycan gəncinin tamhüquqlu vətəndaş kimi öz gələcəyinə sahib çıxması üçün bütün lazımi şərait yaradılıb. Bu gün gənclərimiz dahi rəhbər Heydər Əliyevin memarı və qurucusu olduğu qüdrətli, güclü Azərbaycanın vətəndaşı olmaqdan qürur hissi keçirirlər.

Xalq artisti, Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü Yasin Qarayev: Müasir dövlətçiliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyevin xatirəsi Azərbaycan xalqı tərəfindən daim ehtiramla yad edilir. İnsanlar təkcə onun anım günündə deyil, adi vaxtlarda da Fəxri xiyabana gedərək dahi şəxsiyyətin məzarını ziyarət edir, ruhu qarşısında baş əyirlər. Ulu Öndərimizin uzaqgörən siyasəti, qətiyyəti və müdrikliyi sayəsində müasir müstəqil Azərbaycan dövlətinin təməli qoyulub, parlaq gələcəyə aparan uğurlu yolun parametrləri dəqiq müəyyənləşdirilib. Bu siyasət ölkəmizi dinamik inkişaf yoluna çıxarıb. Heydər Əliyev Azərbaycan mədəniyyətinin himayədarı idi, rəhbərliyinin bütün dövrlərində mədəniyyətə, incəsənətə yüksək diqqət və qayğı ilə yanaşırdı. Sevindirici haldır ki, Ümummilli Liderin siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün ölkəmizdə mədəniyyətin və incəsənətin inkişafı istiqamətində mühüm addımlar atılır, bütün təminatlar yaradılır.

Təqaüddə olan müəllim Əlifağa Məmmədov: Milli intibahın əsasında dayanan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində önəmli rol oynayır. Məlumdur ki, bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək yetərlidir. Bu kontekstdən yanaşdıqda, ümummilli lider Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas edib. Ulu öndər Azərbaycanda elm və təhsilə xüsusi həssaslıqla yanaşıb və elm adamlarına, müəllimlərə qayğı göstərib. O, SSRİ dövründə və müstəqillik illərində də elm və təhsilin inkişafını, bu sahənin problemlərini diqqətdən kənarda qoymayıb, bununla bağlı bir çox tarixi fərman və sərəncamlar imzalayıb. Xalqımızın dahi şəxsiyyətindən saatlarla danışmaq olar, ona sevgimiz tükənməzdir. Heydər Əliyevin xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının direktor müavini Elnur Eltürk: Ümummilli lider Heydər Əliyev fenomen şəxsiyyət idi. Ulu Öndərin adı dünyanın nüfuzlu siyasətçiləri ilə eyni sırada çəkilirdi. Dünya liderləri onun yüksək zəka sahibi, xüsusilə çətin siyasi proseslər zamanı uğurlu manevr etmək bacarı-

# Fəxri xiyabanda yaşanan izdiham xalqın öz böyük oğluna tükənməz məhəbbətini bir daha nümayiş etdirirdi

## *Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin xatirəsini böyük ehtiramla anıb*



ğına malik şəxsiyyət olduğunu etiraf edirdilər. Görkəmli dövlət xadimi Heydər Əliyevin bütün amalı müstəqil Azərbaycan, dövlətimizin güclənməsi və müstəqilliyimizin qorunması idi. Ulu Öndərin ötən əsrin 70-ci illərində həyata keçirdiyi geniş quruculuq siyasəti nəticəsində sovetlər zamanında Azərbaycanı müttəfiq respublikalar arasında qabaqcıllar sırasına çıxardı. Ölkəmizdə iri zavod, fabrik, digər sənaye müəssisələri, yaşayış massivləri tikilib istifadəyə verildi. Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə isə inkişafın möhkəm təməlləri yaradıldı. Müxtəlif nüfuzlu xarici şirkətlər ölkəyə dəvət olundu. İqtisadi-sosial sahələrdə böyük işlər həyata keçirildi. Beynəlxalq arenada da Azərbaycanın mövqeyi gücləndi. Dövlətimiz bir sıra beynəlxalq təşkilatların üzvü oldu. Eyni zamanda, elmin müxtəlif sahələrində irəliləyişlər baş verdi.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral: Bu gün səfirlimizin əməkdaşları, Azərbaycanda fəaliyyət göstərən türkiyəli iş adamları da Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, məzarı önünə gül qoyub, ona ehtiramlarını bildiriblər. Heydər Əliyev həqiqətən həyat və fəaliyyəti araşdırılması və gördüyü işlərdən nümunə götürülməsi vacib olan dahi şəxsiyyətdir. O, bütün ömrü boyu Azərbaycanın suverenliyini düşünüb, onun müstəqillik qazanacağı günlərin xəyalı ilə yaşayıb. Müstəqilliyin bərpasından sonra da ölkəsini necə inkişaf etdirmək, gücləndirmək barədə düşünən, bütün ömrünü bu amala həsr edən şəxsiyyət olub. Heydər Əliyev bu yolda öz həyatını dəfələrlə təhlükə altına atan, hər zaman öz canını qurban verməyə hazır olan insan idi. Türk dünyasında Heydər Əliyev kimi lider hər zaman yetişmir.

***

Dekabrın 12-də Bakı ilə yanaşı, Azərbaycanın bütün bölgələrində, həmçinin xarici ölkələrdə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş izdihamlı anım mərasimləri keçirilib. Mərasim iştirakçılarının bir neçəsi AZƏRTAC-ın bölgə müxbirləri ilə söhbətlərində Ulu Öndərin Vətəni və xalqı qarşısında misilsiz xidmətlərini xatırladıb, bununla bağlı fikirlərini bölüşüb.

Quba Rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov: Qubanın meyvəçilik rayonu kimi formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun Azərbaycana rəhbərlik etdiyi illərdə respublikamızda, xüsusən də Qubada bağçılığın inkişafı dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdi. Ümummilli Liderin təşəbbüsü ilə 1974-cü ildə meyvəçiliyin intensivləşdirilməsi və ixtisaslaşdırılması ilə bağlı xüsusi qərarın qəbul olunması ölkəmizdə bağçılıq təsərrüfatının inkişafında yeni mərhələnin başlanğıcı oldu. Ümummilli Liderin təşəbbüsü olan həmin qərara əsasən bir neçə il ərzində təkcə Quba rayonunda 14 min hektar sahədə intensiv tipli yeni bağlar salındı. O vaxtadək







Azərbaycanın heç bir rayonda intensiv bağ yox idi. İndi də yadımdadır ki, 1984-cü ildə Quba bağbanları rayonun tarixində ilk dəfə 100 min tondan çox meyvə toplamağa nail oldular. Xoşbəxtəm ki, mənə ulu öndərimiz Heydər Əliyevlə görüşmək, onun rəhbərliyi ilə keçirilən iclaslarda çıxış etmək nəsib olub. Azərbaycanın hansı bölgəsinə, hansı rayonuna diqqət yetirsəniz, oradakı inkişafda Heydər Əliyevin böyük xidmətlərinin olduğunu görərik. Hazırda Qubada 20 min hektara yaxın meyvə bağı var, yerli camaatın böyük hissəsi öz büdcəsini bu bağlardan gələn gəlir hesabına formalaşdırır.

Qarabağ müharibəsi veteranı, "Azərbaycan bayrağı" ordenli Sevindik İsmayılov: 1993-cü ildə Azərbaycan Ordusunda vahid komandanlıq, nizam-intizam yox idi. Bundan istifadə edən düşmən torpaqlarımızı işğal edirdi. Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bütün silahlı qüvvələr vahid komandanlığa tabe edildi. Ordu quruculuğu sahəsində görülən işlər nəticəsində cəbhədəki vəziyyətdə dönüş yarandı. 1994-cü ildə uğurlu Horadiz əməliyyatının iştirakçısı kimi, Ulu Öndərimizin əsgərlərlə görüşünü yaxşı xatırlayıram. O vaxt Füzuli cəbhəsində tank taborunun komandiri idim. 1993-cü ilin noyabrında bizim taboru təlimə aparmışdılar. Dekabrda Heydər Əliyev Silahlı Qüvvələrin döyüş hazırlığı ilə tanış olmaq üçün təlim düşərgəsinə gəlmişdi. Onun əsgər və zabitlər qarşısında çıxışı hamımızda böyük ruh yüksəkliyi yaratdı. Azərbaycan əsgərinin döyüş əzmini artırdı. Yanvarın 4-də hücuma keçib iki gün ərzində Füzuli rayonunun 21 yaşayış məntəqəsini və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini işğaldan azad etdik. Üç ay sonra Ulu Öndər Füzuli rayonunda ön xətdə yenidən bizimlə görüşdü. Horadiz əməliyyatında fərqlənən əsgərlərin təltif olunduğu mükafatları onları özü şəxsən təqdim etdi. Heydər Əliyevin Fərmanına əsasən mən də "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşam. Bu, həyatımda ən böyük mükafatdır.

***

Səhər saatlarından başlayan anım mərasimləri axşamadək davam edib. Yaşanan izdiham bir daha göstərdi ki, Heydər Əliyev mənən xalqı ilə birlikdədir. Azərbaycan Ümummilli Liderin ideyalarının işığında dinamik inkişaf edir, ölkəmizin beynəlxalq aləmdə nüfuzu getdikcə artır. Ulu Öndərin siyasi kursunu qətiyyətlə davam etdirən Prezident İlham Əliyevin praqmatik siyasəti nəticəsində Azərbaycan yeni-yeni uğurlara imza atır.

# Yeni Azərbaycan Partiyasının “Xalq üçün” devizi ilə seçki təbliğatı uğurla keçirilir

## AĞDAM

Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Rayonun Xındırıstan kənd seçiciləri ilə





növbəti görüş keçirilib.

Görüşlərdə çıxış edən YAP Ağdam rayon təşkilatı təbliğat-təşviqat qrupunun üzvləri Hafiz Əzimzadə, Baxşeyiş Əliyev və təşkilatın məsul işçisi Tofiq Cəfərov qeyd ediblər ki, bələdiyyə seçkiləri ölkəmizin siyasi həyatında mühüm yer tutur: “İnanırıq ki, seçicilərimizin hər biri 23 dekabr bələdiyyə seçkilərində fəal iştirak edəcək, ölkəmizin hərtərəfli inkişafının davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər”.

Tədbirdə digər çıxış edənlər rayonda bələdiyyə seçkilərinin ədalətli, şəffaf və müvafiq seçki qanunvericiliyinə uyğun həyata keçirilməsi məqsədilə təbliğat-təşviqat işlərinin uğurla yekunlaşacağını və bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədlərinin qalib gələcəyinə əmin olduqlarını bildiriblər.

## ZƏRDAB

Yeni Azərbaycan Partiyasının Zərdab rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının Seçki Qərargahının təbliğat-təşviqat qrupu rayonun Dəkkəoba və Dəliquşçu kəndlərində seçicilərlə görüş keçirib.




Görüşü açan YAP Zərdab rayon təşkilatının aparat rəhbəri Səbuhi Kərimov qeyd edib ki, hər bir seçki prosesindən qələbə ilə çıxan Yeni Azərbaycan Partiyası Bələdiyyə seçkilərinə də tam hazırdır: “Partiyanın seçki proqramı mövcuddur. Həmin proqramda bələdiyyələrə namizədlərin qarşısında duran vəzifələr öz əksini tapıb.”

S.Kərimov “Xalq üçün” devizi ilə təşviqat kampaniyasına uğurla başlayan Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirib. Qeyd edib ki, respublikamızda keçirilən hər bir seçki ölkəmizin demokratik dəyərlərə sadiqliyini sözdə deyil, əməli işdə sübut edir.

Tədbirdə YAP Zərdab rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvləri, Vüsalə Kərimova, Mübariz Umarov, Ziyad Xancanov, Mənsim Pənahov, çıxış edərək seçkilərin yüksək səviyyədə, tam demokratik şəraitdə keçiriləciyini, hər bir seçicinin öz istədiyi namizədə sərbəst şəkildə səsvermə imkanına malik olduğunu vurğulayıblar.

Tədbirdə çıxış edən seçicilər bələdiyyə seçkilərində sabitliyin, stabilliyin, davamlı və dayanıqlı inkişafın sülhün və əmin-amanlığın qarantı olan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

## QOBUSTAN

Dünən YAP Qobustan rayon təşkilatı rayonun Təklə kənd seçiciləri ilə görüş keçirib. Görüşü giriş sözü ilə açan YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev Azərbaycanda seçicilərin hüquqlarından danışdı. Bildirib ki, vətəndaşların seçib-seçilmək hüququ konstitusiya ilə müəyyən olunan ən müstəsna hüquqlardan biridir. Artıq seçicilər öz gələcək taleyini özləri müəyyən edir, müxtəlif seçkili orqanlarda təmsil olunacaq nümayəndələrini seçməklə, həm də həmin qurumlarda öz maraqlarının müdafiəsini təmin etmiş olurlar. Onlar inandıqları, etimad göstərdikləri namizədləri seçərək, onlar qarşısında istənilən məsələ ilə bağlı təkliflər irəli sürür, bununla da, onların həllinə müvəffəq olmuş olurlar. Füzuli Gülaliyev ölkəmizdə 1999-cu ildən təsis edilən bələdiyyə institutlarına diqqət yönəltdi. 20 yaşlı bələdiyyələrin, bu qısa müddətdə, kifayət qədər inkişaf etdiyini, in-





zibati əraziləri daxilində sakinlər üçün mühüm işlərin görüldüyünü bildirdi. Təbii ki, mövcud nöqsanlar və həllini gözləyən problemlər də var. Rayon təşkilatının sədri namizədlərə tövsiyələrini verdi. Bildirdi ki, seçicilərin etimadını qazanaraq, bələdiyyə üzvü seçiləcəkləri təqdirdə, daim dövlətimizin və xalqımızın inkişafına səy göstərsinlər. Bu istiqamətdə durmadan, yorulmadan çalışsınlar. Bu, böyük etimaddır və onlar seçicilərin bu etimadını doğrultmalıdırlar.

Görüşdə çıxış edən YAP Qobustan rayon təşkilatı seçki qərargahının üzvlərindən Azadə Buğday, Şahbazov Ruslan, Cəfərov Zaur, Tahir Səbzaliyev və digərləri çıxış edərək bildirdilər ki, Yeni Azərbaycan Partiyası bütün fəaliyyəti dövründə daim xalqla bir olub, onun inkişafı və tərəqqisi yolunda əzmlə çalışıb. Son illərdə ölkə Prezidenti, YAP-ın Sədri İlham Əliyevin həyata keçirdiyi və müxtəlif sahələrdə mühüm dəyişikliklərə səbəb olan bu islahatlar xalqımıza olan sevginin bariz nümunəsidir. Bu baxımdan, partiya tərəfindən irəli sürülmüş namizədlərin növbəti 5 ildə bələdiyyə sahəsində siz seçicilərə ləyaqətlə xidmət edəcəklərinə inanırıq, Natiqlər seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırdı.

Bələdiyyə üzvlüyünə namizədlər Nicat Ələkbərov, Teyfur Əmrahov çıxış edərək vurğuladılar ki, tarixi təcrübə göstərir ki, hər bir dövlətin mütərəqqi inkişafı müxtəlif amillərlə yanaşı, hər də demokratik seçkilərdən asılıdır. Cənab Prezidentin həyata keçirdiyi siyasi xətlə cəmiyyətimizdə demokratik ənənələr daha da möhkəmləndirilib. İnamla deyə bilərik ki, əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də YAP təmsilçiləri qələbə qazanacaqlar. Hər zaman dövlətimizə, xalqımıza, seçicilərimizə vicdanla və ləyaqətlə xidmət etmək üçün hazırıq. Namizədlər daha sonra bütün seçiciləri 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verməyə dəvət etdilər.

## DAŞKƏSƏN

Daşkəsən rayonunda Bələdiyyə seçkilərinə hazırlıqla bağlı təbliğat-təşviqat işləri yüksək səviyyədə davam etdirilir. Daşkəsən rayonunun Bayan kəndində keçirilən seçicilərlə görüşdə YAP Daşkəsən təşkilatının sədri Meydanəli Yol-





çuyev və rayon təşkilatı idarə heyətinin üzvü Malik Ələsgərov iştirak ediblər. Yeni Azərbaycan Partiyasından namizədliyi irəli sürülənlərlə kənd sakinlərinin görüşündə namizədlərin fəaliyyətləri haqqında seçicilərə məlumat verilib. Görüşdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və eyni zamanda, Onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu siyasətin uğurla aparıldığı vurğulanıb. Tədbirin sonunda bir qrup fəal gəncə YAP-ın üzvlük vəsiqələri təqdim olunub.

***RÖVŞƏN RƏSULOV***
***RƏFİQƏ KAMALQIZI***
***ZÜMRÜD BAYRAMOVA***

## İspaniya kralı Pedro Sançesi Baş nazir təyin etdi



İspaniya kralı VI Filipp İspaniya Sosialist Fəhlə Partiyasının baş katibi və Baş Nazirin vəzifələrini icra edən Pedro Sançesi növbəti hökumətin başçısı vəzifəsinə təyin edib. Bu barədə kralla keçirilən görüşdən sonra Konqresin sədri Meriçel Batet məlumat verib. Onun sözlərinə görə, yeni hökumətin formalaşdırılması Pedro Sançesə həvalə edilib, hərçənd bunun üçün hələ lazım olan parlament, xüsusən kataloniyalı deputatların dəstəyi yoxdur.

# Paşinyan Ermənistanın keçmiş prezidentləri ilə ayrı-ayrılıqda haqq-hesab çürüdür





***Ermənistanda hakim maydansevərlər və qrantyeyənlər qrupu korrupsiyaya qarşı mübarizə adı altında respublikanın sabiq rəhbərliyinə qarşı səlib yürüşünü davam etdirir. Lakin paşinyançıların qəribə şıltaqlığına görə zərbəyə sırf "Qarabağ klanı"nın nümayəndələri tuş gəlirlər.***

Məlum olduğu kimi, keçmiş prezident Koçaryan 2008-ci ilin martında seçkiləri tam uduzmuş prezidentliyə namizəd Ter-Petrosyanın (səslərin 21,5 faizini toplayıb) tərəfdarları tərəfindən təşkil edilmiş "Yerevan-maydan"ın zorla qovulmasına görə "konstitusiya quruluşunun devrilməsi" kimi cəfəng bir ittihamla həbs edilib. Müstəntiqlər ona 3 milyon dollar məbləğində rüşvət işini "sırıya" bilməyiblər.

Koçaryan Vovayeviçin qərarı ilə istintaq təcridxanasına qayıdıb. İndi də Paşinyan qıllı barmaqlarını Ermənistanın üçüncü prezidenti Serj Sarkisyana doğru uzatmaq qərarına gəlib. Sarkisyan fermerlərə dəstək milli layihəsi çərçivəsində dövlət üçün dizel yanacağının tədarükü tenderi ilə bağlı epizodda təqsirləndirilir.






Tender zamanı yaranmış vəziyyət təkcə Ermənistan üçün deyil, bütün postsovet məkanı üçün çox səciyyəvidir. Hərracda dizel yanacağına ən aşağı qiymətlər təklif etmiş firma yerinə, Sarkisyanın hansısa dostu, dizel yanacağını baha qiymətə itələyən şəxs qalib gəlib. Nəticədə dövlətə bir milyon dollardan çox ziyan dəyib.

Şəksiz ki, bu hadisə sabiq prezidentə başucalığı gətirmir, lakin Sarkisyana cinayət işi açılmasını birbaşa Ermənistan Konstitusiyasının maddəsi qadağan edir. Həmin maddəyə görə, dövlətin birinci şəxsləri keçmiş işlərinə görə cəzalandırıla bilməz.

Paşinyanın ətrafındakı ekspertlər donquldanaraq deyirlər: "Nə olsun, bu, boş formalizmdir: biz impiçment haqqında müddəadan istifadə edərək onu cinayət məsuliyyətinə cəlb edəcəyik".

Burada başını tutmayasan, nə edəsən. İndiyədək impiçment yalnız fəaliyyətdə olan prezidentə şamil olunurdu. İstefada olan şəxsə impiçment elan etmək hətta nonsens deyil, sözün həqiqi mənasında marazmdır.

Əgər Paşinyan və onun ətrafının Sarkisyanı korrupsiyaya görə cəzalandırmaq üçün əlləri bu dərəcədə güclü gicişirsə, onda konstitusiyaya düzəlişlər edin. Hərçənd bu addım bir növ "arılar bala qarşı" mətləbini xatırladır. Axı Paşinyan ömrü boyu baş nazir vəzifəsini tutmayacaq, onun özünü də nə vaxtsa elədiyi saysız-hesabsız səhvlərə görə divara qısnayacaqlar. Onda hesab edək ki, bu maraqlı ssenari heç bir işə yaramır.

Sonunda Sarkisyan tək deyil ki. Sabiq prezidentin bir vaxtlar ürək genişliyi nümayiş etdirib yardım göstərdiyi tərəfdarları və "xaç övladları" mütləq azadlıqda dolaşırlar. Nə edirsinizsə edin, araşdırın, sübuta yetirin, həbsə atın.

Lakin məlum olduğu kimi, Paşinyanın bəzən qanunun tələblərini və nəzakət qaydalarını büsbütün inkar edən daosu var. Elə götürək Vovayeviçin may ayında öz tərəfdarlarına respublikanın məhkəmə orqanlarının fəaliyyətini dayandırmaq çağırışını. Axı hakimlər maydan baş nazirinin istəyinə görə özlərini buraxmaq istəmədilər. Qanuna görə isə bu "inqilabçının " və onun ətrafının hakimləri tutduqları vəzifələrindən azad etmək səlahiyyəti yoxdur: odur ki, "qoy onların öhdəsindən xalq özü gəlsin".

Bəs bu kabab sevən qisasçı baş nazir dizel yanacağı ilə bağlı çoxdankı işə görə Serj Sarkisyanı nə üçün küncə sıxışdırıb? Axı qanuna əsasən ona çırtma vurmağa da haqqı yoxdur. Özü də nə üçün məhz indi? Axı sonra keçmiş baş nazir olmuş keçmiş prezident hakimiyyəti faktiki olaraq Paşinyana peşkəş edib.

Belə bir hiss yaranır ki, qisasçılıq Paşinyanın bütün səbəb və əməllərinə o dərəcədə sirayət edib ki, o, sosial ədalət və bizdə toxunulmaz adamlar yoxdur harayı ilə çoxdan mətbəx-kommunal xırdaçılığına və şəxsi intiqam hisslərinə yuvarlanıb.

Sarkisyana gəldikdə isə 2008-ci ilin fevral seçkilərində məhz o, öz opponentlərini, o cümlədən bir vaxtlar Paşinyanın buyruq uşağı kimi yanında işlədiyi Levon-ter-Petrosyanı geridə qoyaraq Ermənistanın üçüncü prezidenti olub. Yəni formal olaraq, Sarkisyanın "Bir mart" işinə də aidiyyəti var və deməli, o, Paşinyanın "konstitusiya quruluğuna sui-qəsd"ə görə həbsxanada oturmasında "günahkardır".

Görünür, Paşinyan yaxın vaxtlara qədər Sarkisyandan hesab sormağa tələsməyib və onu bir növ desert üçün saxlayıb, yəni əvvəlcə daha çox nifrət etdiyi Robert Koçaryanla haqq-hesab çürütmək istəyib. Hər halda, Paşinyanın baş nazirliyi hələ müddətinin ortasına da çatmayıb, yeni administrasiyasının nəzərəçarpan uğurları da yoxdur, beləliklə, öz reytinqini gücləndirmək üçün namünasib olan və sıfır dəstəyə malik eks-prezidenti nümunəvi-nümayişkaranə tənqid vasitəsi kimi döyərək ehtiyatda saxlamaq heç vaxt əngəl deyil.

Lakin Sarkisyan siçandan da sakit süpürgənin arxasında gizlənmək və keçmiş xatirələri oyatmamaq yerinə, noyabrın sonunda birdən-birə Xorvatiyanın Zaqreb şəhərində keçirilən Avropa Xalq Partiyasının sammitində Paşinyanı və ətrafını sərt tənqidə atəşinə tutaraq özünü zərbə altında qoyub.

"Populistlərin hakimiyyətə gəlməsində" öz üzərindəki məsuliyyəti inkar etməyən Sarkisyan Paşinyana konstitusiya və demokratiya normalarının pozulmasını, şəxsi motivlərlə siyasi təqibləri və cəmiyyətin həyatının yaxşılaşdırılması istiqamətində şübhəli uğurları da xatırladıb, hətta Yerevanda qərar vermək səlahiyyəti olan kimlərisə narahat edən bir-iki siyasi bəyanatlar da verib.

Birincisi, Sarkisyan Ermənistanla Aİ arasında yaxşı münasibətlərin inkişafının əsasının onun prezidentliyi dövründə qoyulduğunu bəyan edərək ən yaralı yerə toxunub. İkincisi, Bakıya mesaj verilib ki, "Artsax (Dağlıq Qarabağ) heç bir vaxt Azərbaycanın tərkibinə qaytarılmayacaq". Üçüncüsü, Paşinyanı Avropa mühitində xırda və çox qisasçı diktator kimi təqdim edərək evin sirrini bayıra çıxarıb.

MXAT sayağı pauza gözlədikdən sonra təzadlara istinad etməklə Paşinyanın tərəfdarları Sarkisyana cavab hazırlayıblar. Eks-prezidentin ünvanına ittihamlar səsləndirməklə yanaşı, ictimaiyyəti Ermənistanın yeni İnformasiya, İdman və Gənclər Siyasəti nazirinin korrupsiyaya görə saxlanılması xəbəri ilə sevindiriblər. Guya, "inqilab hökuməti hər kəsə qarşı sərt və ədalətli münasibət sərgiləyir".

Hərçənd, nə qədər riyakarlıq etsələr də, Paşinyan tərəfdarları teatr tamaşası quruluşunu gizlədə bilməyiblər. Paşinyan administrasiyasına qarşı qanuni sual meydana çıxır: " bizdə mühakimə oluna bilməyəcək məmurlar yoxdur" tezisinin bəyan olunmasına rəğmən nədən Vovayeviçin keçmiş rəisi və himayədarı, eks-prezident Levon Ter-Petrosyan ciddcəhdlə zərb altından çıxarılıb?

Paşinyanın tərəfdarlarının buna da cavabı var: guya Ter-Petrosyan postsovet Ermənistanın birinci prezidenti olsa da və onun hakimiyyəti dövründə bir çox mənfi hadisələr baş versə də, amma bunlar o qədər çoxdan olub ki, artıq demək olar ki, həqiqətə uyğun deyil. Üzərindən iyirmi ildən çox keçib - bütün yararlılıq müddətləri bitib və hər şeyin üzərini toz basıb.

Təbii ki, təşkilatçısının və ilhamvericisinin seçkilərdə uduzan Ter-Petrosyan olduğu 2008-ci ilin mart hadisələrinə görə 1 nömrəli eks-prezidenti heç bir məsuliyyətə cəlb etməyəcəklər, çünki onun ardınca Paşinyanın bir çox silahdaşları da yedəklə tələyə düş bilərlər. Paşinyan özü, əfsus olsun ki, 11,5 il əvvəl baş vermiş hadisələrə görə məhkum edilməyəcək. Bir şəxsi bir əmələ görə iki dəfə məsuliyyətə cəlb etmək qanunla qadağandır, hərçənd bəzi işbazlar üçün belə lazımdır. Heç olmasa "inqilabi məqsədəuyğunluq" mülahizəsinə əsasən...".

# BÖLGƏLƏRDƏ XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ XATİRƏSİ DƏRİN EHTİRAMLA YAD EDİLİB

## DAŞKƏSƏN

Dünən Daşkəsən rayon ictimaiyyətinin 3000 nəfərdən çox nümayəndəsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsinə rayon mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri düzüb, Dahi Öndərə sonsuz hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər. Daha sonra rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə ehsan





süfrəsi təşkil olunub. Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Ümummilli Lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra ehsan süfrəsində Ulu Öndərin şərəfli ömür yolundan və vətənimiz qarşısında tarixi xidmətlərindən danışıb: "Daşkəsənlilər yaxşı bilirlər ki, Ulu Öndər həmişə xalqına və Vətəninə bağlı olmuş, öz cəsarəti, müdrikliyi, vətənpərvərliyi ilə xalqımızın keşiyində durmuş, ən çətin anlarda həyatını xalqımızın milli amallarına qurban verməyə hazır olduğunu dəfələrlə sübut etmişdir. Biz daşkəsənlilərin bu gün bura toplaşması ömrünü xalqının xoşbəxtliyinə həsr etmiş böyük və dahi Ulu Öndərin əziz xatirəsinə göstərilən dərin məhəbbət və ehtiramın bir ifadəsidir". Digər çıxış edənlər də Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müasir və müstəqil Azərbaycan Respublikasının quruculuğu yolundakı şərəfli mübarizəsi barədə fikirlər söyləyiblər.

## SAMUX

Dünən Samux rayonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım mərasimi keçirildi. Əvvəlcə tədbir iştirakçıları Ulu Öndərin abidəsi önünə tər çiçək





dəstələri düzüblər. Tədbir iştirakçıları rayonun Heydər Əliyev Mərkəzində Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr edilmiş rəsm sərgisinə baxdılar. Sərgidə fəal YAP üzvləri müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın müdrik rəhbəri, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu Heydər Əliyevin xalqımızın qarşısında göstərdiyi xidmətlərdən və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət haqqında tədbir iştirakçılarına məlumat verilib.

## QARADAĞ

Dünən Qaradağ rayonu, Lökbatan qəsəbəsindəki Heydər Əliyev adına Parkda Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin anım mərasimi keçirildi. Anım mərasimində Qaradağ rayon icra





hakimiyyəti başçısı Süleyman Mikayılov və Şura üzvləri abidə önünə əklil və gül dəstələri düzülüb. Daha sonra rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, ardıcıl olaraq, mərasimə toplanmış ictimaiyyət nümayəndələri Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzməklə öz dərin ehtiramlarını bildirdilər. Qaradağ rayonu, Lökbatan qəsəbəsindəki Heydər Əliyev adına Parkda Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin anım mərasimində iştirak edən rayon ictimaiyyəti abidə önünə tər gül-çiçək dəstələri düzüb. Rayonun bütün qəsəbələrində Ulu Öndər Heydər Əliyevin ruhuna dualar oxunub və ehsan süfrələri açılıb.

**RƏFİQƏ**





# BSU-da Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib

***Dünən Bakı Slavyan Universitetinin və YAP Nəsimi rayon təşkilatı BSU ərazi ilk partiya təşkilatının təşəbbüsü ilə Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin BSU-dakı büstünün önünə əklil və gül dəstələri düzüblər, sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirilib. Tədbirin əvvəlində iştirakçılar Azərbaycan Respublikasının Dövlət Himnini səsləndiriblər, Ümummilli Liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva bildirib ki, xalqımızın həyatında çox ağır və hüznlü gündür. Bu gün Azərbaycan dövlətçiliyinin xilaskarı, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin vəfat etdiyi gündür. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkəmizin hərtərəfli inkişafı, xalqımızın mənəvi-mədəni təkamülü, milli-mənəvi dəyərlərinin qorunub gələcək nəsillərə ötürülməsi üçün fədakarlıqla fəaliyyət göstərib. Birinci dəfə 1969-cu ildə Azərbaycana rəhbər seçilən Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, vətənpərvərliyi və təşəbbüskarlığı sayəsində ölkəmiz sürətli inkişaf yoluna çıxmış, iqtisadiyyat, elm, təhsil və mədəniyyət sahələrində əsaslı dönüşə nail olunmuşdur. N.Əliyeva bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizi, milli dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas etmiş və böyük uzaqgörənliklə vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmışdır.

Rektor N.Əliyeva qeyd edib ki, Ulu Öndərimiz Heydər Əliyevin layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çox qarışıq və mürəkkəb dünyamızda ölkəmizi böyük məharətlə, siyasi uzaqgörənliklə idarə edir və respublikamız böyük nailiyyətlərə imza atır. BSU-nun tələbə-gəncləri Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsini dərindən öyrənməli, Onun ideyalarına sadiq qalmalı, dövlət başçımız İlham Əliyevi qətiyyətlə və prinsipiallıqla dəstəkləməlidirlər.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və ictimai-siyasi fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə Beynəlxalq münasibətlər, regionşünaslıq və jurnalistika fakültəsinin tələbəsi Səbinə Nəsiblinin "Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti", Məktəbəqədər təlim-tərbiyə və ibtidai sinif müəllimliyi fakültəsinin tələbəsi Xədicə İsmayılova Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın xalqımızın Ümummilli Lideri Heydər Əliyevə ithaf etdiyi "Elegiya" şeirini səsləndirib, Tərcümə fakültəsinin tələbəsi İlkin Xəlilov "Ulu Öndər Heydər Əliyevin xalqın milli identikliyinin yüksəldilməsində rolu" mövzusunda çıxışları dinlənib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin ailəsi haqqında videoçarx təqdim olunub.

Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir tələbələr arasında keçirilən debatla davam edib.

**ZÜMRÜD BAYRAMOVA**

# Dayanıqlı sosial-iqtisadi tərəqqi demoqrafik inkişafın göstəricisidir

***Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərir. Demoqrafiya sahəsindəki siyasət dövlətimizin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan, bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində, demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Müasir dövrümüzdə insan inkişafının demoqrafik aspektləri bir sıra amilləri özündə cəmləşdirir. Belə ki, ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin, bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib. Təbii ki, demoqrafiya sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi də qeyd olunan amillər sırasındadır.***



Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafının təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq 10 milyonu ötən ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi və sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir.



## SABİTLİK, TƏHLÜKƏSİZLİK, ƏMİN-AMANLIQ MƏKANI OLAN ÖLKƏMİZDƏ ƏHALİNİN SOSİAL RİFAHI YÜKSƏLİB

Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır. Vurğulamaq yerinə düşər ki, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Statiktik göstəricilərə nəzər salsaq görərik ki, 2003-cü ildə ölkədə gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən, kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb.

Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanıb ki, layihədə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi, əhalinin reproduktiv sağlamlığının, habelə ana və uşaqların mühafizəsinin gücləndirilməsi, həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən olunub. Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

## AZƏRBAYCAN DÖVLƏTİNİN SİYASƏTİNİN ƏSASINDA XALQIN RİFAHININ YÜKSƏLMƏSİ DAYANIR

Təbii ki, bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklər baş verir. Əlbəttə ki, iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Son 16 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Bildiyimiz kimi, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Sosial sahədə yeni inqilabi addımlar olan bu artımlar sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından, başqa illərdən fərqlənən il olacağını bəyan edən dövlət başçısının təqdim etdiyi uğurlu sosial paketlər bu bəyanatın daha bir real təsdiqidir. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin son üç ayı ərzində imzaladığı fərman və sərəncamlar dövlətin yeni sosial paketinin işə başladığını göstərmiş oldu və bu davamlı xarakter aldı. Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam, 4 Fərman sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə hesablanmışdı. Bu sosial paketin davamı olaraq dövlət başçısının 18 iyun 2019-cu il tarixində imzaladığı sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin, müxtəlif sahələrdə çalışanların əməkhaqlarının artırılması təmin olunub. Əhalinin sosial problemlərinin həllinə, onların sosial rifah halının yaxşılaşmasına yönəlmiş ikinci bir irihəcmli sosial paket Azərbaycan Respublikası Prezidenti tərəfindən atılan növbəti addımdır. Minimum əməkhaqlarının 250 manata qaldırılması, ayrı-ayrı strukturlarda çalışan işçilərin əməkhaqlarının artırılması, müəllimlərin əməkhaqlarının 20% artırılması, minimum pensiyaların 200 manata çatdırılması ilə əlaqədar Milli Məclisə göndərdiyi qanunvericilik təşəbbüsü və s. Bütün bunlar Cənab Prezidentin sözlə-əməlinin vəhdətinin parlaq təzahürüdür.

Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Ölkəmiz Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində iqtisadi islahatları reallaşdıran, innovativ inkişafa yol açan dövlətə çevrilib. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Prezident İlham Əliyev, çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Ölkəmiz 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gəlir.

Bu gün ölkəmiz güclü iqtisadi imkanlara malik dövlətdir və Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır və qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə, hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu cür sosial inqilab xarakterli qərarlar davamlı xarakter alıb və bütün bunlar insanların güzəranı, daha da yaxşılaşdırır. Azərbaycan sosialyönümlü dövlətdir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yaxşılaşdırılması istiqamətində dövlət başçısı tərəfindən islahatlar reallaşır.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə ardıcıl olaraq qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, onların həyat şəraitinin yaxşılaşdırılması, qayğılarının həllinə yönəlmiş tədbirlər həyata keçirilir. Göründüyü kimi, bu və ya digər sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xəttə prioritet təşkil etdiyini göstərir. Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə, dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini əhatə edir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

Təbii ki, bu uğurlar və dövlətimizin insan amilinə belə diqqət göstərməsi demoqrafik inkişafa öz müsbət təsirini göstərir. Bu gün ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Dövlət ailə siyasəti Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, bir sıra dövlət proqramlarında özünün uğurlu inkişafını tapmışdır. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar ailə institutunun inkişafında da öz təsdiqini tapıb. Dövlət başçısı İlham Əliyev çıxışların birində müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək belə deyib:"Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır".

***Nəzakət ƏLƏDDİNQIZI***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür***

# “Ağ Partiya” “Milli Şura”nı sərt şəkildə hədəfə aldı

***“Milli Şura”nın sədri Cəmil Həsənlinin AXCP sədri Əli Kərimlinin təsiri altında siyasi gündəmdə qalmaq cəhdləri “Ağ Partiya”nın sədri Tural Abbaslının sərt tənqidi ilə üzləşib. Belə ki, “Milli Şura” rəhbərliyinin gah aksiyalar keçirmək, gah da parlament seçkilərini “boykot” etmək ətrafındakı oyunbazlıqlarının düşərgənin imicinə köklü zərbə vurduğunu deyən T.Abbaslı belə halların yolverilməz olduğunu, ümumiyyətlə, radikal kəsimin ümummüxalifət adına ləkə vurduğunu iddia edib. Məhz sözügedən qarşıdurmalar sonradan sosial şəbəkədə ağır tənqidlərə, hətta söyüşlərə çevrilmişdi.***

Bu məsələdə AXCP sədri Əli Kərimlinin “facebook” trolları onun təlimatlarına əsasən, aşırı təhqirlərlə qarşı tərəflərin ittihamlarını kölgədə qoymağa cəhd göstərmişdilər. Ancaq bu plan da özünü doğrultmadı. Bu da, onun sübutudur ki, söz atışmaları hələ də davam edir, tərəflər bir-birlərini müxalifətə xəyanət etməkdə günahlandırırlar.



## “2013-cü ildə Cəmil Həsənlini heç kim tanımırdı, indi də tanımır”

Xatırladaq ki, məhz bu ərəfələrdə T.Abbaslı C.Həsənliyə hələ 2013-cü ildə keçirilmiş prezident seçkisində ən ciddi dəstəyi göstərdiklərini iddia edərək, “Milli Şura” sədrinin onları “uşaqmuşaq” adlandırmasına kəskin tonda cavablar vermişdi. Ümumiyyətlə, “Ağ Partiya” sədri daha öncələr mediaya açıqlamadığı faktları ictimailəşdirərək, müxalifətyönlü saytların birinə C.Həsənlini, eləcə də, “Milli Şura”nın dirijoru hesab edilən AXCP sədri Ə.Kərimlini ifşa edən açıqlamalar verib. Beləliklə, müxalifət düşərgəsində artıq özünəməxsus yerləri olduğunu iddia edən T.Abbaslı C.Həsənliyə və ətrafına “biz təsadüfi adamlar deyilik” mesajını verib, üstəlik, digər sərt ifadələrini işə salıb. Misal üçün, o, özünün və dəstəkçilərinin C.Həsənlini heç vaxt ciddi siyasətçi olaraq qəbul etmədiklərini vurğulamaqla yanaşı bldirib ki, 2013-cü ildə ölkənin siyasi arenasında bu ad heç bir məna kəsb etmirdi. “Yalnız 2005-ci ildə partiyanın qərarına (AXCP-nin parlament seçkilərini boykot qərarı nəzərdə tutulur - R.N.) tabe olmayıb, parlamentdə oturduğuna görə partiyadan qovulan orta statistik tarixçi-alim kimi yadda qalırdı”- deyən T.Abbaslı C.Həsənlinin, nəinki Biləcəridən, hətta yaşadığı ərazidən - Yasamaldan o tərəfdə tanınmadığını, xüsusi ilə xatırladıb.

Müxalifətçi partiya sədri iddia edib ki, ümumiyyətlə, C.Həsənlinin siyasətə gətirilməsində vaxtilə özünün təmsil olunduğu Müsavat partiyasının rolu var və bu gün qarşı tərəf bu faktı unutmamalı, zamanında ona siyasi dəstək göstərmiş şəxslərə həqarətlər etməməlidir, əksinə, boynuna götürdüyü öhdəliklərə əməl etməlidir: “Həmin dönəmdə C.Həsənli bizim qarşımızda öhdəlik götürmüşdü ki, əgər seçilərsə, o zaman 2 il müddətinə parlament seçkiləri keçirəcək və daha sonra prezidentlikdən istefa verəcək. Eyni zamanda, siyasətdən birdəfəlik gedəcəyinə dair öhdəlik də götürmüşdü, heç bir partiyanın üzvü belə ola bilməzdi. Qeyd edim ki, C.Həsənli “Milli Şura”nın sədri postuna siyasətçi kimi deyil, sırf bitərəf ziyalı kimi seçilib”.

## “Cəmil Həsənli eyforiyaya qapılıb”

“Ağ Partiya” sədri C.Həsənlinin Rüstəm İbrahimbəyovun dublyor aktyoru olduğunu da xatırladıb və onu da deyib ki, məhz 2013-cü ildə “Milli Şura”da Müsavat-AXCP maraqlarının kəskin qarşıdurması yaşanırdı. “Buna görə də, C. Həsənli R.İbrahimbəyovun dublyor aktyoru kimi “Milli Şura”ya sədr seçildi”-deyən T.Abbaslıya görə, sadəcə olaraq, Həsənli bu rola, o qədər aludə oldu ki, artıq özünü “böyük siyasi xadim” hesab edir. “Əgər bununla bağlı bir sorğu keçirilsə, onda “Milli Şura” Cəmil Həsənlini namizəd elan etdiyi günə qədər cəmiyyətdə onun adının xatırlanmadığını müəyyənləşdirmək olar”-deyə müxalifətçi partiya sədri bildirib.

T.Abbaslı C.Həsənlinin eyforiyaya qapıldığını, hətta bu məsələyə o qədər aludə olduğunu sanaraq, onlara dəstək göstərməyənləri müxalifətçi kimi qəbul etməməsi iddiasını siyasi klounluq kimi qiymətləndirib. SİTAT: “C.Həsənli hazırda eyforik vəziyyətdədir. O, artıq kiməsə müxalifət lisenziyası verə biləcəyini düşünəcək qədər bir atmosferə salınıb və zənn edir ki, kimisə müxalifət saya və ya kimisə saymaya bilər. Guya ki, onun fikri kimlər üçünsə önəmlidir. Ancaq o, kökündən yanılır və yaxşı olardı ki, özünün haradan-haraya gəlməsi barədə düşünsün”.

Müxalifətçi partiya sədri zamanında belə bir şəxsi siyasi arenaya tanıtdırdığına əfsus etdiyini etiraf edib: “Təəssüf edirəm ki, biz vaxtilə gəncliyimizi fəda edib, belələrini tanıtmışıq. Əgər biz zamanında beləl追ərini yox, özümüzü tanıtsaydıq, bu gün bu məsələləri diskussiya etməzdik”.

## “Adam iki dəfə deputat kreslosunda əyləşib, indi isə seçkiyə qatılanları ittiham edir”

Abbaslıya görə, bu gün C.Həsənli, ya da xarici ölkələrdə yaşayan “siyasi mühacirlərin” söyüş səhnəsi fonunda siyasət yürütmələri, həqiqətən də, təəssüfdoğurucu bir haldır. “Siyasət bu, deyil. Siyasət hər cəmiyyətin elitar peşəsidir, burada səviyyə, qırmızı xətlər, norma və dəyərlər olmalıdır. Siyasətdə “Atam mənə kor deyib, gələni-gedəni vur deyib” prinsipi olmamalıdır” deyə Abbaslı bildirib və əlavə edib ki, ümumiyyətlə, C.Həsənli heç vaxt siyasi analiz edə bilməz. Çünki bu arena onluq deyil və olmayacaq: “Diqqət yetirin, bu gün seçkiyə gedənlər satqın adlandırılır. Halbuki 2000-2010-cu illərdə C.Həsənli deputat olub. Adam iki dəfə deputat kreslosunda əyləşib, indi isə seçkiyə qatılanları ittiham edir. Odur ki, boykotçuların mövqeyində heç bir arqument yoxdur. Məsələn, 2008-ci ildə seçkiləri boykot edənlər 2013-cü ildə seçkiyə qatılıb, 2018-də yenidən boykot edirlər. Bu, məntiqsizdir. Çünki eyni şərtlərlə keçirilən prosesdə gah iştirak, gah da boykot edirlər. Seçki həmin seçki, onu keçirən həmin qurumdur, deməli, sənin özün üçün nəsə fərqlidir, problem səndədir”.

Beləliklə, C.Həsənlinin T.Abbaslını və s. müxalifətyönlü tərəfləri təhqir hədəfinə götürməsi onun özünə ciddi zərbə vurmuş oldu. Artıq ortaya çıxan ciddi və danılmaz faktlar da bütün deyilənləri təsdiq etmiş olur. Hər halda, görünən “dağa” nə bələdçi? Yaxud korkor, gör-gör...

**Rövşən NURƏDDİNOĞLU**

## 90 yaşlı qadına qarşı quldurluq edən şəxs saxlanılıb

***Xətai rayonunda ahıl yaşlı qadına qarşı quldurluq edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 10-da saat 13 radələrində naməlum şəxs Neapol küçəsində 90 yaşlı qadının yaşadığı mənzilə aldatma yolu ilə daxil olaraq onun boğaz nahiyəsindən tutaraq pul verməsini tələb edib. Zərərçəkən qadın hadisədən sonra huşunu itirərək yıxıldığından həmin şəxs hadisə yerindən uzaqlaşıb.***



Quldurluq hadisəsi ilə bağlı Xətai Rayon Polis İdarəsinə məlumat daxil olan kimi cinayəti törədən şəxsin axtarışlarına başlanılıb. Hadisəni törətməkdə şübhəli bilinən şəxs, əvvəllər dəfələrlə məhkum olunmuş Bakı şəhər sakini Akif Məmiyev idarənin əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. O, ifadəsində hadisəni tamah məqsədilə törətdiyini bildirib. Faktla bağlı Akif Məmiyev barəsində Xətai Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, istintaq əməliyyat tədbirləri davam etdirilir.



**Təhmasib Novruzov**

## Müxalifətin seçki problemi

***Bu, bir həqiqətdir ki, demokratik ölkələrdə hər bir siyasi təşkilatın ən sevdiyi və səbrlə gözlədiyi hadisə seçkilərin keçirilməsidir. Aşağıdan-yuxarı, yəni bələdiyyə seçkilərindən başlamış parlament və prezident seçkilərinə kimi, bütün seçki kampaniyaları hər bir siyasi qurum üçün, əsl bayram kimi qeyd olunur. Nədəni məlumdu. Bu haqda çox danışıb başınızı ağrıtmağa lüzum görmürəm. Sadəcə, seçkilərdə siyasi fəaliyyətin nəticəsi ortaya qoyulur və kim xalqdan daha çox dəstək alırsa, o da olur iqtidar.***

Amma qəribədir ki, bizim bu əzəli və əbədi dağıdıcı müxalif siyasətçilərimiz hər dəfə seçki kampaniyası başlayanda, pəjmürdə olurlar. Bir-birini təkzib edən bəyanatlar vermək, növbənöv qərarlar qəbul etmək, xalqdan etimad qazanmaq əvəzinə, xalqın etimad göstərdiyi siyasi təşkilata qara yaxmaq və sair bu kimi metodlar, seçkilər zamanı bəzi müxalif partiyaların adət etdikləri köhnə üsuldur. Mən bunun səbəbini heç düşünmədim. Çünki məlum olan bir şey haqqında düşünməyə və baş sındırmağa ehtiyac yoxdu. Bu siyasət dəllalları yaxşı bilirlər ki, onları bu seçkilərdə də növbəti fiasko gözləyir. Axı əvvəlki seçkilərdən ötən dörd il ərzində, zavalsızlar nə vaxt xalqın içinə gedib, onun etimadını qazanmaq üçün fəaliyyət göstərdilər ki, indi də xalqdan səs umsunlar? Bunların işipeşəsi gah Şimalda, gah Qərbdə, hərdən də Cənubda özlərinə ağa (oxu: sponsor) axtarmaqla keçir. Həm də bir-birləri ilə yarışa girirlər ki, görsünlər kim xaricdə daha çox “imic” qazana bilir. Başları pullu əcnəbi Məşədi İbad ovlamağa necə qarışırsa, bir də ayılıb görürlər ki, növbəti seçki başlayıb. Bunların da seçkilərdə iştirakı üç mərhələdən keçir, amma bu mərhələlər qanunla müəyyən edilən və MSK-nın təyin etdiyi mərhələlər deyil. Onların özlərinə məxsus mərhələlərdir ki, indi bu haqda bir-iki kəlmə deyim, sizlərə də agah olsun. Seçkilərin vaxtı elan olunduğunu eşidən kimi, özlərini necə itirirlərsə, gah baykotdan, gah seçkilərdə iştirak etməməkdən danışıb, sonda toparlanıb, Əlidən, Validən, Məmmədvəlidən ibarət bir siyahı tutub, tələm-tələsik ötürürlər Mərkəzi Seçki Komissiyasına ki, bunlar bizim namizədlərimizdir. MSK da borcunu yerinə yetirib, bu namizədləri alır qeydə. Yazıq seçici də, siyahıya ha baxır, ha axtarır ki, görsün birinin millət üçün xeyirli bir əməli varmı?! Amma tapa bilmir ki, bilmir. Bundan sonra həmin müxaliflərin seçkilərdəki ikinci mərhələsi başlayır. İqtidara qara yaxmaq, eyni zamanda, MSK-nın obyektiv olmadığını addımbaşı bağıra-bağıra söyləmək, onlara görüşlərin keçirilməsi üçün şərait yaradılmadığından şikayətlər və ilaxır. Nəhayət, seçki keçirilir, xalq öz seçimini edir. Beləcə, mojaritar sistemdə özləri üçün müəyyənləşdirdikləri siyahıdan bir kimsə də seçkidə üç faizlik baryeri belə aşa bilmir. Bu zaman müxaliflərin “seçkilərdə iştirakı”nın üçüncü mərhələsi start götürür. Hansısa dairədə, hansısa məntəqədə bir komissiya üzvünün naşılığından hansısa bir yanlışlığı əllərinə keçirib, düşürlər dünyanın canına. Ay aman, qoymayın, iqtidar seçkiləri saxtalaşdırıb, demokratiya pozulub, bizim namizədlərin parlamentə düşmələrinə süni əngəllər yaradılıb, daha nə bilim, nələr. Xaricdə də marığa yatan tülkülər və pişiklər nə çox! Bunların ötürdükləri dezinformasiyaları gerçək kimi başlayırlar beynəlxalq aləmdə yaymağa. Axı kimə məlum deyil ki, indi dünyada ən güclü informasiya təbliğatı aparmağı bacaran düşmənlərimizdi, yəni haylar. Onlara da belə dezinformasiyalar lazımdı ki, onu həqiqət kimi sırısınlar dünyaya. Bununla da, müxalifətimizin “seçkilərdə iştirakı” başa çatır, parlamentdə yer qazana bilməsələr də, yaxşı pul qazanırlar. Əslində, onlara da elə bu lazımdı də... Guya özləri bilmirlər ki, bu millət onlara səs verəsi deyil? İqtidarın ağacəkmə kampaniyasına yüz minlərlə adam könüllü olaraq qatıldığı halda, onon beş partiyanın yığışıb keçirdikləri mitinqə cəmi yüz-yüz əlli adam gəlirsə, seçkilərin belə olacağını müxaliflərin özləri guya əvvəlcədən hesablamamışdılar?

# Əsir və Girovların, Məcburi Köçkünlərin hüquqlarını müdafiə edən ictimai birliklər

***Həsrət Yolu Əsir və Girovlara Kömək İctimai Birliyi 10 dekabr - İnsan Haqları Günü ilə bağlı beynəlxalq insan haqları təşkilatlarına müraciət edib. Sözügedən qurumun mətbuat xidmətindən Müstəqil İnformasiya Agentliyinə daxil olan BMT-yə, Avropa Şurasına, ATƏT-ə, ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkə başçılarına, Beynəlxalq Qızıl Xaç Komitəsinə ünvanlanan müraciətdə qeyd olunub ki, BMT-nin Baş Assambleyası 10 dekabr 1948-ci ildə ilk dəfə hamı və hər kəs üçün prinsipi ilə ümumbəşər mahiyyəti olan İnsan Hüquqları Haqqında Ümumi Bəyannaməni qəbul edib.***

Bəyannamənin qəbul olunmasının 61-ci ildönümündə Ermənistanın xalqımıza qarşı həyata keçirdiyi etnik təmizləmə və işğalçılıq siyasəti nəticəsində, bu gün 1 milyondan artıq Azərbaycan vətəndaşının hüquqları pozulub, el-obasından qovularaq məcburi köçkün həyatı yaşamağa məhkum olunub, 100 minlərlə insan işgəncə və zorakılıqlara məruz qoyularaq şikəst və əlil edilib, 20 mindən artıq vətəndaşımız qətlə yetirilib, 4166 nəfər soydaşımız itkin düşüb, 800 nəfərdən çox azərbaycanlı işgəncələrə məruz qalaraq, Ermənistan tərəfdə saxlanılır? Bundan əlavə, müraciətdə ictimai birlik İnsan Haqları Günündə beynəlxalq təşkilatları Ermənistandan əsir və girovlarımızın qaytarılmasını, itkinlərimizin taleyinə aydınlıq gətirilməsini tələb etməyə və 10 dekabr 1948-ci ildə BMT-nin Baş Assambleyasının qəbul etdiyi İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin müddəalarını kobudcasına pozduğuna görə, işğalçı dövlətə qarşı sanksiyalar tətbiq olunmasına çağırır.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış faktlar Ermənistan Respublikasının əsirlikdə olan Azərbaycan vətəndaşlarına qarşı münasibətdə beynəlxalq hüquq normalarını tapdaladığını, o cümlədən, "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyalarının həyata və ya şəxsiyyətə qəsd etmək, hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək, insan ləyaqətinə toxunmaq kimi tələblərini kobud surətdə pozduğunu sübut edir. Ermənistanın Azərbaycana hərbi təcavüzü zamanı dinc əhalinin kütləvi şəkildə öldürülməsi, Ermənistan Respublikasında və Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində əsirlikdə saxlanılmış Azərbaycan vətəndaşlarının dəhşətli işgəncələr və mənəvi əzablara məruz qalması, amansız rəftar və ləyaqəti mütəmadi alçaltmaqla özünüöldürmə dərəcəsinə çatdırılması, soyuqqanlılıqla qətlə yetirilməsi, yaxud verilmiş işgəncələr nəticəsində vəfat etməsi söylədiklərimizə əyani sübutdur. Aşağıda bu faktların bir qismi göstərilir: Erməni silahlı birləşmələri Xocavənd rayonunun işğalı zamanı (17.02.1992) Qaradağlı kəndindən girov götürdükləri 117 nəfər kənd sakinindən 80-ə yaxınını yerindəcə güllələmişlər. Bu barədə kənd sakinləri Seymur Xanlar oğlu Nağıyev, Şahbuz Əmirxan oğlu Əliyev və digərləri şahidlik edirlər. Xocavənd rayonu Qaradağlı kənd sakini Həqiqət Yusif qızı Hüseynova ermənilərin 1992-ci ilin fevralında 10 nəfər həmkəndlisinin diri-diri yandırmalarının şahidi olmuşdur. 1993-cü ilin aprel ayının 1-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Kəlbəcər rayonuna genişmiqyaslı hücumu zamanı Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından ("QSM-7") Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya ("Uraqan") bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdir. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən, qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Tələsikliyə səbəb, azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən, jurnalistlərdən gizlətmək olmuşdur. Erməni hərbi birləşmələri komandirlərinin efirdəki bu radiodanışığının mətni Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin radio əks-kəşfiyyat xidməti tərəfindən 1993-cü ilin aprel ayının 6-7-də lentə alınmışdır. Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndinin 15 dinc sakini ermənilər tərəfindən yerindəcə qətlə yetirilmişdir. Bunların arasında Məhəmməd Əmralıyev, Surxay Əmralıyev, Çingiz Əmralıyev, Aygün Əmralıyeva, Büsat Əhmədova və Çiçək Həsənova da olmuşdur. Bu barədə Xasay Məhəmməd oğlu Əmralıyev və Binnət Abduləli oğlu Əhmədov şahidlik edirlər. İmarət Məmişovanın ifadəsinə görə, o, Kəlbəcər rayonunun işğalı zamanı iki az-yaşlı uşağı ilə girov götürülmüşdür. İmarət Məmişovanın gözləri qarşısında ermənilər səkkiz mülki şəxsi, o cümlədən, onun səkkiz yaşlı oğlu Talehi güllələmiş və meyitləri yandırmışlar. Bundan sonra ermənilər onun özünü, 10 yaşlı oğlu Yadigarı, digər qadın, uşaq və qocaları Xankəndiyə apararaq, dəhşətli işgəncələrə məruz qoymuşlar. Erməni girovluğundan 1994-cü ildə azad edilmiş Əhmədovlar ailəsinin şəhadətinə görə, 17 avqust 1993-cü il tarixdə ermənilər Füzuli rayonu Qacar kəndinin 25-dək dinc sakinini onların gözləri qarşısında güllələmişlər. Erməni girovluğunda olmuş Həsən Məcid oğlu Hüseynov 1993-cü ildə Horadiz-Füzuli yolunda 40-dək dinc əhalinin ermənilər tərəfindən öldürüldüyünü bildirir. 16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyi guya qaçmağa cəhd edərkən, atışma zamanı 8 azərbaycanlı hərbi əsirin öldürüldüyünü bəyan etmişdir. Bakıda meyitlər üzərində keçirilən məhkəmə, tibbi ekspertizası zamanı Beynəlxalq Hüquq və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və Böyük Britaniyanın "Həkimlər insan hüquqları uğrunda" təşkilatının üzvü, professor Derek Paunder azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya "qaçmağa cəhd edərkən" öldürülməsi fikrini rədd etmişdir. Girovluqdan qayıtmış Niyaz Balay oğlu Zeynalov bildirir ki, ermənilər girov götürdükləri, Şuşa rayonu Quşçular kənd sakinləri 1910-cu il təvəllüdlü Səriyyə Tağı qızı Zeynalovanı, 1920-ci il təvəllüdlü Yeganə Dadaş qızı Mədətovanı və Mövsüm Əbdürrəhim oğlu Əhmədovu 11 fevral 1992-ci il tarixdə diri-diri yandıraraq qətlə yetirmişlər. 61 yaşlı keçmiş girov Budaq Əli oğlu Alışanov erməni əsirliyində 5 azərbaycanlının Drmbon kəndində (Dağlıq Qarabağ) ağır fiziki işlərdə qul kimi istifadə edilərək, öldürüldüyünün şahidi olmuşdur. Əsirlikdən azad edilmiş İsmayıl Sarif oğlu İsmayılov təsdiq edir ki, ermənilər girov götürdükləri üç azərbaycanlının başını erməni qəbri üstündə kəsmişlər. Laçın rayonunun sakini Səmayə Kərimova 2 yaşlı qızı Nurlanəyə və özünə verilən işgəncələrə dözməyərək, erməni əsirliyində intihar etmişdir. 18 may 1992-ci il tarixdə Laçın rayonunun işğalı zamanı ailələri ilə birlikdə girov götürülmüş 1977-ci il təvəllüdlü Taleh Mədət oğlu İbişovun bildirdiyinə görə, ermənilər onun atası Mədət Əvəz oğlu İbişovu və bacısı, 1967-ci il təvəllüdlü Yeganə Mədət qızı İbişovanı vəhşicəsinə öldürmüşlər. 1973-cü il təvəllüdlü İlham Nəsirov əsirlikdə uzun müddət ac-susuz saxlanıldığından, 23 noyabr 1993-cü il tarixdə Yerevan hərbi hospitalında kəskin kaxeksiya diaqnozundan vəfat etmişdir. Erməni əsirliyində ölmüş 20 yaşlı Fərhad Rəhman oğlu Atakişiyevin meyitinin qalıqlarının məhkəmə-tibbi ekspertizası sübut etmişdir ki, o, müntəzəm döyülmələr və ağır işgəncələr nəticəsində qətlə yetirilmişdir. Yardımlı rayonu sakini Heydər Heydərov Şuşa həbsxanasında ermənilər tərəfindən verilmiş müntəzəm işgəncələr nəticəsində ölmüşdür (24.12.1994). Bu barədə keçmiş əsirlər Həbib Əliyev, Əvəz Muxtarov, Əbülfət Qasımov və digərləri şahidlik edir. Erməni əsirliyində olan Xocalı şəhər sakini Faiq Şahmalı oğlu Əliməmmədov Gəncə şəhərinin adını "Kirovabad" deməдиyinə görə, erməni hərbçisi tərəfindən güllələnmişdir. Bu barədə Zülfi İbrahim oğlu Məmmədov, Məmməd Cümşüd oğlu Məmmədov və digərləri şahidlik edir. Əsirlikdən azad edilmiş Abuzər Manafovun, Həsən Hüseynovun və Aydın Məhərrəmovun ifadəsinə görə, 14 fevral 1994-cü il tarixdə Şuşa həbsxanasında saxlanarkən Kolya, Slavik və Qor adlı nəzarətçilər, əslən Beyləqan rayonundan olan İlqar Ənvər oğlu Qurbanovu müntəzəm işgəncələr verərək öldürmüşlər. 1962-ci il təvəllüdlü Şəmkir rayon sakini Fikrət Həsən oğlu Hüseynov müntəzəm döyülmələr və işgəncələr nəticəsində 28 iyun 1993-cü il tarixdə erməni əsirliyində vəfat etmişdir. Əsirlikdən azad edilmiş Bəxtiyar İbrahim oğlu Tağıyev və Mətləb Şiraslan oğlu Allahverdiyev bu faktın şahidləridir. Bakıda keçirilmiş məhkəmə-tibbi ekspertizası zamanı Fikrət Həsən oğlu Hüseynovda qabırğa sınıqları aşkar edilmişdir. Əsirlikdən azad edilmiş Zöhrab Nadir oğlu Heydərov 21 may 1993-cü il tarixdə Şuşa həbsxanasında, 1973-cü il təvəllüdlü Zahid Nəsibulla oğlu Əmrullayevin erməni nəzarətçiləri tərəfindən boğularaq qətlə yetirildiyini bildirmişdir. Girovluqdan azad edilmiş Maşallah Bəndəliyev bildirmişdir ki, 1992-ci ilin mayında Xankəndidə qarajda saxlanılarkən, qarajın sahibi Mero və Sarkisyan Vazqen adlı digər erməni bir nəfər adını bilmədiyi lal girova əvvəl müxtəlif dərəcəli işgəncələr vermiş, sonra isə onun başını kəsmişlər.

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış faktlar Ermənistan Respublikasının əsirlikdə olan Azərbaycan vətəndaşlarına qarşı münasibətdə beynəlxalq hüquq normalarını tapdaladığını, o cümlədən, "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyalarının həyata və ya şəxsiyyətə qəsd etmək, hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək, insan ləyaqətinə toxunmaq kimi tələblərini kobud surətdə pozduğunu sübut edir.**

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 dekabr




## Goranboylular Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini andılar



Yeni Azərbaycan Partiyası Goranboy rayon təşkilatı icra hakimiyyəti ilə birgə Ümummilli Lider Heydər Əliyevin anım gününü qeyd edib. Tədbirdən öncə, Ümummilli Lider Heydər Əliyevin Goranboy rayonuna səfərinin video-çarxına baxılıb. Tədbiri giriş sözü ilə açan icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev müstəqilliyimizin ilk illərində xalqımızın üzləşdiyi problemlərdən danışaraq, o zamankı hakimiyyətin səriştəsizliyi nəticəsində, ölkəmizin dərin böhrana düçar olduğunu vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığını xatırladıb. "Xalqımızın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev xalqımızı düçar olduğu təhlükədən xilas etdi" deyə qeyd edən M.Quliyev, həmçinin, bildirib ki, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində, Azərbaycan müstəqilliyinin dönməzliyi təmin olunub.

YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov Ulu Öndər Heydər Əliyevin vətən və xalq qarşısındakı xidmətlərindən danışaraq, qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev bu zirvəni qeyri-adi idarəçilik qabiliyyəti və yüksək insanlıq keyfiyyətləri sayəsində fəth edib. Tədbirdə Goranboy rayonundan olan milli qəhrəman Niyazi Aslanovun həyat yoldaşı Rübabə İsmayılova Ümummilli Lider Heydər Əliyevlə görüş xatirələrindən danışaraq, həmin görüşlərin həyatının ən yaddaqalan səhifəsi olduğunu bildirib.

Daha sonra əməkdar müəllim Rəddin Məmmədov çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin 1969-1982-ci illərdə hakimiyyəti dövründə təhsil işçilərinə göstərdiyi diqqət və qayğıdan danışaraq, qeyd edib ki, bu gün bu ənənə Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər bir goranboylu, Azərbaycan xalqının bir hissəsi kimi, xalq-iqtidar birliyinə arxalanır və dövlət başçısının ətrafında sıx birləşir.

***Rövşən RƏSULOV***

## YAP Gəncə şəhər təşkilatında Ulu Öndərin anım günü ilə bağlı tədbir keçirilib

***Dünən YAP Gəncə şəhər təşkilatında Dahi Lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunan anım tədbiri keçirilib. Anım mərasimində Azərbaycan dövlətçilik tarixində müstəsna və əvəzedilməz yeri olan dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.***






YAP Gəncə şəhər təşkilatının İdeoloji şöbəsinin baş məsləhətçisi Hüseyn Budaqov dahi şəxsiyyətin keçdiyi şərəfli həyat yolundan, fəaliyyətindən və Vətənimiz qarşısında tarixi xidmətlərindən ətraflı bəhs edib. Hüseyn Budaqov fenomenal siyasi bacarığı ilə fərqlənən Ulu Öndərin hələ sağlığında canlı əfsanəyə çevrildiyini və öz şah əsəri olan müstəqil Azərbaycanı bütün dünyada şərəf və ləyaqətlə təmsil etdiyini bildirib.

AMEA Gəncə Bölməsinin gənc tədqiqatçı-alimi, YAP Gəncə şəhər təşkilatının sədr müavini, elm üzrə Prezident mükafatçısı Elnur Həsənov hər bir xalqın milli özünütəsdiqinin parlaq ifadəsinə çevrilmiş müstəqil dövlətçilik konsepsiyasının, məhz fenomenal liderlərin adı ilə bağlı olduğunu və xalqımızın alternativsiz liderinin, məhz Heydər Əliyev olduğunu, Azərbaycana inkişaf, xilaskarlıq, qurtuluş bəxş edən missiyanın banisi olan bu böyük şəxsiyyətin, əslində, məhz Azərbaycan üçün dünyaya gəldiyini, canından da artıq sevdiyi Vətəninə və xalqına layiqli xidməti nəticəsində bu gün və eləcə də, həmişə millətinin və tarixin yaddaşında əbədi yer tutduğunu qeyd edib.

Gənc partiya fəallarından Hüseyn Bədəlov və Günel Novruzova çıxış edərək, "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" söyləyən Ulu Öndərimiz tərəfindən görülən böyük işlərin, Onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının, məntiqi nəticəsi olaraq, bu gün qədirbilən xalqımızın demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə etdiyini, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratdığını, xüsusilə, vurğulayıblar.

***RÖVŞƏN***

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və Ədəbiyyatının tədrisi metodika və metodologiyası ixtisası üzrə I kurs magistri Əlizadə Şəhla Binnət qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

***

Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya üzrə III kurs tələbəsi Əsgərova Aytac Elman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin IV kurs tələbəsi Hacıyeva Aysel Pərviz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Məcnunova Nazpəri Məcnun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Təsviri incəsənət müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Hüseynli Aytən Namiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Naftalan şəhərində Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

Ümummilli Lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar Naftalanda ümumşəhər tədbiri keçirilib. Tədbir iştirakçıları, öncə, Dahi Öndərin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, Ulu Öndərin abidəsi önünə gül-çiçək dəstələri düzüblər. Sonra şəhərin Heydər Əliyev Mərkəzini ziyarət edərək, Ulu Öndərin həyat və siyasi fəaliyyətini əks etdirən fotostendlərlə tanış olublar. Naftalan şəhər İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında "Həmişəyaşar Dahi" adlı kompozisiya nümayiş etdirilib. Anım tədbiri çərçivəsində Ulu Öndərin əziz xatirəsinə şəhid ailələri və aztəminatlı ailələr üçün ehsan süfrəsi açılıb.

Tədbirdə Naftalan şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov Ümummilli Liderin keçdiyi şərəfli həyat yolundan və fəaliyyətindən, Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən Dahi Şəxsiyyətin ideyaları və siyasi kursunun həyata keçirilməsi, ölkəmizin güclənməsi və daha da inkişaf etməsi istiqamətində reallaşdırılan layihələrdən ətraflı danışıb.



Tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixi və dövlətçiliyi tarixində misilsiz xidmətlərindən danışıblar.

***ZÜMRÜD BAYRAMOVA***


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**